MƏHƏBBƏT PAŞAYEVA

# AZƏRBAYCANIN QƏDİM DİYARI XINALİQ

Azərbaycan Dövlət Nəşriyyatı
Bakı–2006

51196

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

63.5(5Az)
P 21

P 26.5.5

Elmi redaktor:
**Vəli Əliyev**
*AMEA müxbir üzvü,*
*tarix elmləri doktoru,professor*

Nəşriyyat redaktoru:
**İslam Sadıq**

Rəycilər:
**Nərgiz Quliyeva**
*tarix elmləri doktoru*

**Nəcəf Müseyibli**
*tarix elmləri namizədi*

P 26 **Paşayeva Məhəbbət. Azərbaycanın qədim diyarı Xınalıq.** Azərnəşr, Bakı, 2006, 60 səh.

Əsərdə Azərbaycanın Quba rayonu Xınalıq kəndində məskunlaşan və tarixi-etnoqrafik ədəbiyyatda Şahdağ etnik qruplarına aid edilən xınalıqların mənşəyi, etnik tarixi, mənəvi mədəniyyəti tarixi-etnoqrafik baxımdan təhlil olunmuşdur. Geniş və zəngin çöl materialları, mövcud mənbələr əsasında müəllif xınalıqların mənəvi mədəniyyətinin bir şox sahələrini: ailə-məişət ənənləri, qohumluq münasibətləri, toy mərasimləri, qədim inanclar sistemini ilk dəfə etnoqafik və illüstrativ materiallar əsasında tədqiqata cəlb etmişdir.

**0505000000 / M – 651(07) – 2006 qrifli nəşr**

© Paşayeva M., 2006

## ÖN SÖZ

Azərbaycanda türkdilli azərbaycanlılarla yanaşı öz etnik adları olan, lakin Azərbaycan ərazisində məskun olduqlarına görə azərbaycanlı adlanan bir çox azsaylı xalqlar və etnik qruplar (avarlar, saxurlar, rutullar, udilər, xınalıqlar, buduqlar, qrızlar və b.) yaşayırlar və onlar Azərbaycan dövlətinin bərabər hüquqlu vətəndaşıdırlar. Azərbaycanın maddi və mənəvi mədəniyyətinin təşəkkülündə, mənəvi simasının formalaşmasında bütün tarixi dövrlərdə aparıcı rola malik olaraq Azərbaycanın türkdilli əhalisi ilə bərabər bu azsaylı xalqların və etnik qrupların da özünəməxsus yeri var.

Dünyanın etnik xəritəsində yalnız Azərbaycanın bir neçə kəndində məskun olan qrız, haput, xınalıq kimi etnik qruplar da Azərbaycanın canlı tarixini yaşadır. Bu baxımdan Azərbaycan əhalisinin böyük əksəriyyətini təşkil edən türkdilli azərbaycanlılarla yanaşı əsrlər boyu Azərbaycanda yaşayan bu etnik qruplarından da tarixi etnoqrafiyasının qarşılıqlı-müqayisəli şəkildə araşdırılması bütövlükdə Azərbaycan mənəvi mədəniyyətinin həqiqi zənginliyinin ümummilli xüsusiyyətlərinin və dərin tarixi köklərinin üzə çıxarılması işində mühüm əhəmiyyət kəsb edir.

Məlum olduğu kimi, bu gün Azərbaycan xalqının xarici düşmənləri, xüsusilə də hər zaman xarici havadarlarına arxalanan erməni şovinistləri respublikamızda qarşıdurma yaratmaq siyasətini yeritməyə çalışırlar. Ona görə də tarix, o cümlədən etnoqrafiya elmimiz Azərbaycanın parçalanması istiqamətində ideoloji mübarizə aparan, azsaylı xalqlar arasında nifaq salmağa səy göstərən qüvvələrə qarşı həqiqi elmi mübarizə aparmalı, onlara

tutarlı elmi dəlillərlə cavab verməli , vahid Azərbaycan xalqının tərkib hissəsi olan bu azsaylı xalqlarla türkdilli azərbaycanlıların mənəvi mədəniyyətinin qarşılıqlı halda tarixi-etnoqrafik səpgidə tədqiq olunmasını təmin edərək tarixi gerçəkliyi ortaya qoymalıdır.

Bu baxımdan Məhəbbət Paşayevanın “Azərbaycanın qədim diyarı Xınalıq" adlı kitabı öz orijinal təhlili, həm də kitaba verilmiş illüstrasiyalar baxımından çox maraqlıdır. İnanıram ki, bu əsər elmi ictimaiyyətin və mütəxəssislərin diqqətini çəkəcəkdir.

Bu gün cəmi bir kənddə yaşayan və Azərbaycan tarixində qədim izləri olan xınalıqların etnik tarixinə, ailə məişətinə və qədim inanclar sisteminə həsr olunmuş tədqiqat işi azərbaycançılıq ideologiyasını əsas götürərək tarixi-etnoqrafik baxımdan azsaylı xalqlar və etnik qruplarla bağlı Azərbaycan Respublikasının milli siyasətinə xidmət göstərir.

Milli liderimiz Heydər Əliyevin fəaliyyətini davam etdirərək onun siyasi kursunu daha da genişləndirən Azərbaycan Respublikasının Prezidenti, möhtərəm İlham Əliyev xalqın həyatının bütün sahələrində olduğu kimi, tarixi-etnoqrafik qoruqların yaradılması məsələlərinə də həssaslıqla yanaşır. Bu günlərdə Xınalıq kəndinin dövlət səviyyəsində tarixi-etnoqrafik qoruq elan edilməsi buna əyani sübutdur.

*Məhərrəm Qasımlı*
*filologiya elmləri doktoru , professor*

*Respublikanın ən başlıca sərvətlərindən biri, bəlkə də ən başlıca sərvəti qədimlərdən bu torpaqda yaşayan, öz taleyini, öz həyatını bu torpağa, bağlayan müxtəlif millətlərdən olan, müxtəlif dinlərə etiqad edən adamlardır.*

**Heydər ƏLİYEV**

## Müəllifdən

Azərbaycan tarixinin bütün dövrlərində olduğu kimi bu gün də respublikamızın milli dəyərlərindən, sərvətlərindən sayilan azsaylı xalqların, milli azlıqların və etnik qrupların öyrənilməsi həm elmi, həm də siyasi əhəmiyyət kəsb edir. Xalqımızın görkəmli oğlu, müstəqil Azərbaycan dövlətinin qurucusu, milli lider Heydər Əliyev bütün sahələrdə olduğu kimi Azərbaycan elminin yüksəlişində də yeni bir mərhələnin əsasını qoydu.

Azərbaycanın çoxminillik tarixinin ən parlaq simalarından olan, böyük tarixi şəxsiyyət Heydər Əliyev tariximizin hərtərəfli işıqlandırılmasına xüsusi qayğı göstərməklə yanaşı, Azərbaycanda yaşayan azsaylı xalqların və etnik qrupların maddi və mənəvi mədəniyyətlərinin , adət və ənənələrinin öyrənilməsi və qorunub saxlanması üçün də hərtərəfli imkan yaratmışdır. 1992-ci il 16 sentyabr tarixli "Azərbaycan Respublikasında yaşayan milli azlıq, azsaylı xalq və etnik qrupların hüquq və azadlıqlarının qorunması, dil və mədəniyyətlərinin inkişafı üçün dövlət yardımı haqqında "Prezident fərmanı, Azərbaycanın müstəqilliyinin ilk dövründən etibarən Respublika Prezidenti İcra Aparatı nəzdində milli ideologiyamızın aktual problemləri ilə məşğul olan xüsusi Milli Siyasət şöbəsinin fəaliyyət göstərməsi Azərbaycanda milli məsələlərə xüsusi

diqqət və qayğının nümunəsi kimi qiymətləndirilməlidir. Bütün bunlar mənə "Azərbaycanın qədim diyarı Xınalıq" adlı bir kitabın ərsəyə gəlməsi üçün mənəvi dayaq oldu.

Əlverişli təbii-coğrafi şəraiti nəticəsində dünyanın ən qədim sivilizasiya mərkəzlərindən və ilk insan məskənlərindən biri olan Azərbaycan ərazisinə hələ çox qədim dövrlərdən bəri müxtəlif qəbilə və tayfaların axını baş verirdi. Bu baxımdan Azərbaycan ərazisində minllik-lərdən bəri özünəməxsus ənənəvi mədəniyyət formalaş-mışdır. Təsadüfi deyil ki, zəngin etnik ənənələrini qoruyub saxlmağı bacaran Azərbaycan hər zaman etnoqrafik xəzinələr müzeyi kimi dəyərləndirilmiş və Azərbaycanın tarixi-etnoqrafik bölgələri hər zaman etnoqrafların diqqət mərkəzində olmuşdur.

Müasir dövrdə azərbaycanlıların, yəni Azərbaycanda yaşayan və bütün tarixi dövrlərdə çoxluq təşkil edən türkdilli azərilərlə bərabər Azərbaycanı onlar qədər öz döğma vətəni sayan azsaylı xalqlar və etnik qrupların mənəvi mədəniyyət tarixinin müqayisəli şəkildə tarixi-etnoqrafik baxımdan araşdırılması Azərbaycan etnoqrafiya elminin qarşısında duran mühüm vəzifələrdən biridir.

Azərbaycanda məskunlaşan və Azərbaycan xalqının etnik tarixində özünəməxsus yeri olan azsazylı xalqların və etnik qrupların vahid ümumxalq mədəniyyəti əsrlər boyu inkişaf edərək qarşılıqlı mədəni əlaqələr və ümum-milli mənəvi mədəniyyət əsasında formalaşmışdir. Bu gün vahid Azərbaycan xalqınının tərkib hissəsi olan bu etnoslar (buduqlar, qrızlar xinalıqlar, udilər və b.) ümumi məişətlərini formalaşdırmaqla bərabər özlərinin spesifikli-yini də qoruyub saxlamışlar.

Azərbaycanın nadir etnoslarından olub yalnız bir kənddə məskunlaşan və özünəməxsus etnik tarixə malik

olan xınalıqlara həsr etdiyimiz bu tədqiqatın məqsədi bu etnosun mənşəyinin, məişətinin bəzi spesifik xüsusiyyətlərini, qədim inanclar sistemini müqayisəli şəkildə, Azərbaycanın digər bölgələri və bütövlükdə türk dünyasının adət-ənənələri ilə paralellər apararaq ümummilli vahid tarixi köklərimizi araşdırmaqdır.

Bunu da bildirmək istəyirik ki, xınalıqların mənəvi mədəniyyətinin belə müqayisəli şəkildə öyrənilməsi indiyədək xüsusi tədqiqat obyekti olmamışdır. Tədqiqata əsasən Xınalıq kəndində topladığımız zəngin etnoqrafik çöl materialları cəlb olunnaqla bərabər müxtəlif səciyyəli yazılı mənbə,tarixi-etnoqrafik ədəbiyyatlardan da istifadə olunmuşdur.

Yeri gəlmişkən etnoqrafik ekspedisiyalar zamanı bizə yardımcı olmuş Mədəniyyət və Turizm Nazirliyinin Quba rayonu mədəniyyət şöbəsinə, bizə bələdşilik edən insanlara və qonaqpərvər Xınalıq əhalisinə öz təşəkkürümüzü bildiririk.

**Məhəbbət Paşayeva,**
*tarix elmləri namizədi, dosent.*

# I FƏSİL

## ETNIK TARIX VƏ ETNOGENETIK ƏLAQƏLƏR

Bu gün Azərbaycanın etnik xəritəsində sayı cəmi bir neçə min olan və bir neçə kənddə yaşayan, tarixi – etnoqrafik ədəbiyyatda "Şahdağ xalqları" adlandırılan **xınalıqlılar, buduqlular, qrızlar, haputlar** Azərbaycan tarixində izləri olan etnik qruplardir. Quba rayonu ərazisində Şahdağ ətrafında yerləşən bu azsaylı xalqların maddi və mənəvi mədəniyyətinin, etnik xüsusiyyətlərinin araşdırılması bütövlükdə Azərbaycan mənəvi mədəniyyətinin ümummilli xüsusiyyətlərinin və dərin tarixi köklərinin üzə çıxarılmasında mühüm rol oynayır.

Yüksək dağ silsilələri əhatəsində yaşayan, keçilməz yolları olan və belə coğrafi mövqeyinə görə təcrid olunmasına baxmayaraq hələ XVIII əsrdən "Şahdağ xalqları"nın mənşəyi, məişəti tədqiqatçılarda maraq doğurmuş, bir sıra tarixi-etnoqrafik məlumatlar dərc edilməsinə səbəb olmuşdur (1, 80-82).

XVIII əsrin II yarısınadək Azərbaycanın xanlıqlarından biri olan Şamaxı xanlığına tabe olan Şahdağ kəndləri daha sonra digər Azərbaycan xanlığı – Quba xanlığının tərkibində olmuşdur. XIX əsrin əvvəllərində isə Rusiya imperiyasının Azərbaycandakı inzibati islahatları nəticəsində Bakı quberniyasının Quba uezdində Qrız, Cek, Əlik kəndlərinin də daxil edildiyi Xınalıq və Buduq mahalları yaradılmışdı. Əsasən Xınalıq, Hapıt, Qrız, Buduq kəndlərindən Şahdağ xalqlarının bir hissəsi (**qrızlar, buduqlar, hapıtlar**) XIX əsrin ortalarından etibarən köçərək Quba qəzasının Müşkür (indiki Xaçmaz r-nu) və

Şabran mahallarında, həmçinin Göyçay, Şamaxı qəzalarında Buduqlu, Ağyaz Buduq, Güney Buduq (Qarabulaq), Dirşalı Hapıt, Qaradağ Hapıt, Hapıtlı Məlikli, Şıx Hapıt və s. adlı kəndlər saldılar (2, 96-97;3, 15).

Şahdağ xalqlarının mənşəyi haqqında müxtəlif nöqteyi-nəzərlər mövcud olsa da, son tədqiqatların nəticəsində Şahdağ qrupuna aid olan xalqların **qat, hər** kimi qədim tayfalarının varisləri oiduğu təsdiq edilmişdir. (4, 156-161) Tədqiqatçıların da qeyd etdiyi kimi, Xınalıq,, Haput, Buduq əslində bu etnosların adını deyil, erkən orta əsrlərə aid mənbələrdə adı çəkilən və Qafqaz Albaniyasının şimal-qərbində yerləşən qədim **hər** və **qat** tayfalarının məskun olduğu Xeni, Hər, Bed mahallarının adını əks etdirir. Bu tayfalar qarlı dağ aşırımlarından keçərək Azərbaycanın şimal-şərqində məskunlaşmışlar (5, 83-85; 6, 61;7, 168). Xınalıq kəndinin əhalısinin də əcdadlarının qədimdə Tufan dağı ərazisində yerləşən Xeno şəhərindən gəldiklərini söyləmələri dəfələrlə elmi ədəbiyyatda qeyd edilmişdir. XIX əsrə aid mənbələrdə də Azərbaycanın şimal-qərb hissəsindən Xınalıq ərazisinə qarlı dağ aşırımlarından keçən yol barədə məlumat verilir (8, 394). Qeyd etmək lazımdır ki, Tufan dağı məhz Xınalıq ərazisi ilə şimal-qərbi Azərbaycan arasında yerləşir. Görünür, elə bu səbəbdən də Xınalıq sakinləri Tufan dağını müqəddəs hesab edirlər.

Şahdağ etnik qrupuna daxil olan **haputlar** da əcdadlarının ərəb işğalları zamanı, Hərnə adli bir şəhərdən gəldiklərini söyləyirlər. Qeyd etmək lazımdır ki, Qafqaz Albaniyasının şımal-qərb ərazisində, (müasir Şəki-Zaqatala bölgəsi) Alazan və İori çaylarının qovuşduğu yerdə Hərənta və Hornabuc adlı şəhərlər mövcud olmuşdur (6, 62). Ehtimal etmək olar ki, Şəki-Zaqatala

bölgəsində Hərənta və Hornabuc şəhərlərinin adları elə Hərna şəhərinin bir növ dəyişikliyə uğramış formasıdır.

Beləliklə, bu məlumatlar deməyə əsas verir ki, şimal-qərbi Albaniyanın yuxarıda adını çəkdiyimiz mahalları ilə müasir Şahdağ ərazisi arasında qədim tarixi əlaqə mövcud olmuşdur və Qafqaz Albaniyasının Alazan və İori çayları vadisində məskun olan qədim **hər** və **qat** tafalarının varisləri olan **xınalıqlılar**, **qrızlar, haputlular** Azərbaycanın şimal-qərbini tərk edib Qafqaz aşırımlarından keçərək Azərbaycanin şımal-şərqində məskunlaşmışlar.

Məlum olduğuna görə Şahdağ etnik **qrupuna aid** olan azsaylı **etnoslardan xınalıqlar** özlərini tək halda "khət", cəm halda isə "ketş xalq" və ya "kəttidur" adlandırırlar. Maraqlıdır ki, "kəttidur" etnonimindəki "dur" komponenti bir çox qədim türk etnonimləri, məsələn, bayan-dur, qun-dur və s. üçün xarakterik idi. XIX əsr rus müəlliflərindən Leqkobıtov da xınalıqlıların xarici görünüşlərindən bəhs edərkən "onların çoxunun xurmayı saçlı, göy və mavi gözlü olduğunu" yazırdı (9, 123). Yəni xarici görünüşcə də xınalıqların qədim türk tayfalarına bənzərlikləri var idi (şəkil 2 – Xınalıq əhalisi). Qeyd etmək lazımdır ki, xınalıq dilində də bir çox qədim türkmənşəli sözlərə (məsələn, qansil, soy kimi qədim ailə icmasını əks etdirən terminlər və s.) rast gəlinir. Bundan başqa Leqkobıtov da xınalıq dilini ləzgi dilindən ayıraraq müstəqil dil hesab edirdi (9, 122). Fikrimizcə, xınalıq əhalisi qədim türkmənşəli tayfalardan olub daha sonra coğrafi təcridolunma nəticəsində dəyişərək Qafqaz dil qrupuna girmişlər. Ümumiyyətlə, e. ə. IY əsrdən etibarən Şərqi Anadoludan Qafqazın həm Güneyinə, həm də Qüzeyinə xalqların böyük köçü zamanı bir çox tayfaların,

o cümlədən **herlərin** və **qatların** da axınının baş verdiyi məlumdur. (10, 176) Maraqlıdır ki, hazırda da Türkiyənin Şərqi Anadolu bölgəsində qədim oğuz boyları tərəfindən əsası qoyulan, Harput adlı qədim tarixə malik, özünəməxsus, daha çox Azəri türkcəsi şivələri ilə zəngin folkloru olan şəhər mövcuddur və Harput türkülərinin birində yuxarıda qeyd etdiyimiz hər tayfalarının da adı çəkilir:

Aş yedim yar əlindən
Gül dərdim **hər elindən.**
Başatan güldürmədi
Ağladım zar əlindən. (11, 76)

Məlumdur ki, haputlular özlərini "**hər**", qrızlıları isə "**hərəd**" adlandırırlar. Buduqlular da qrızlıları "**qer**ad", qrızlılar isə öz kəndlərini "**qərəz**" adlandırırlar. Bundan başqa, qrızların yaşadığı **Ər**güc kəndinin adında da **hər** etnonimi öz əksini tapmısdır. Göründüyü kimi**, haput** və **qrızların** etnik özünüadlandırmasının bütün formalarında və toponimlərdə **hər** və ya **qər** komponenti iştirak edir. Bu məlumatların əsasında qrız və haputların əcdadı sayılan Qafqaz Albaniyasının hər tayfaları ilə Türkiyənin Şərqi Anadolu ərazisindəki **harputların** qədim tarixi, etnoqenetik əlaqələri olduğunu söyləmək mümkündür. Qeyd etmək lazımdır kı, hazırda Türkiyədə "harput ağzı" kimi ifadə edilən harput şivə və ləhcələrində, atalar sözləri və deyimlərində Azəri türkcəsinin təsiri hiss olunmaqdadır. Yaxınlıq, dostluq anlamına gələn harput şıvəsindəki "Barabar pendir-əkməkmi yemişik?!" deyimi də bu təsirin bir ifadəsidir (11, 118). Bütün türk xalqlarında olduğu kimi Azərbaycanda da birgə çörək kəsmək dostluğun

başlanğıcı, qan qardaşlığından da üstün bir yaxınlıq deməkdir. Şahdağ xalqlarında da qədim qardaşlaşma ayini zamanı lavaşın bükülərək bərabər yeyildiyi məlumdur. (15, 35)

Digər Şahdağ etnosu olan buduqlar isə özlərini budat adlandırırlar. Ümumiyyətlə tədqiqatçılar buduqların mənşəyi ilə də bağlı bir çox ehtimallar irəli sürmüşlər. (Bax: 7, 176; 12, 18;13, 21-22) Orta əsr mənbələrində bud-at adlı monqol tayfasının adı çəkildiẏini, buduq və ya budat etnoniminin "bud" komponentindən, "uq" və ya "at" çoxluq şəkilçisindən ibarət olduğunu və Şimali Qara dəniz sahillərində türkmənşəli skif tayfalarından birinin bud adlandığını nəzərə alsaq buduqların türkmənşəli olmasını ehtimal etmək mümkündür.

Beləliklə, Şahdağ etnik qrupuna daxil olan etnosların da bəzi qədim türkmənşəli tayfalar kimi (avarlar, saxurlar, gellər və b.) müəyyən tarixi-coğrafi şəraitlə əlaqədar olaraq tədricən əvvəlki etnik mənsubiyyətlərini itirdiklərini güman etmək olar. Bununla belə "Şahdağ xalqları" bəzi qədim türkmənşəli ənənələrini yaşatmağa çalışmışlar. Bunlardan biri də qohumluq birliyinin qorunub saxlanması idi.

***

1. Gerber İ. Q. Opisanie stran i narodov vdol zapadnoqo bereqa Kaspiyskoqo morya. 1728 q. İstoriya, qeoqrafiya i etnoqrafiya Daqestana. M. , 1958.
2. Spiski naselennıx mest Rosiyskoy imperii. Bakinskaya quberniya. t. 65, Tiflis, 1870.
3. Abelov N. A. Ekonomiceskiy bıt qosudarstvennıx krestyan Qeokçayskoqo i Şemaxinskoqo uezdov Bakinskoy qubernii. Materialı dlya izuçeniya ekonomiçeskoqo bıta

qosudarstvennıx krestyan Zakavkazkoqo kraya. t. 6, II, Tiflis. 1882.
Qeybullayev Q. K Etnoqenezu azerbaydjansev. Baku. 1991.
Qeybullayev Q. Ə. K proisxojdeniyu qrızov. Dokladı AN Azerbaydjana. 1985. N3.
Qeybullayev Q. Ə. Azərbaycanlıların etnik tarixinə dair. Bakı. 1994.
Cavadov Q. C. Azərbaycanın azsaylı xalğları və milli azlıqları. Bakı. 2000.
Butkov P. Q. Materialı. t. II.
Leqkobıtov K. Kubinskaya provinsiya. Obozrenie Rosiyskix vladeniy za Kavkazom v statistiçeskom, etnoqrafiçeskom, topoqrafiçeskom i finansovom otnoşeniyax. IV.
B. Tuncay. Qədim türk tarixinə yeni bir baxış. Bakı. 2005.
Z. Gülər. Harput ağzı. Elaziğ. 1992.
Aliev K. K voprosu o plemenax Kavkazskoy Albanii. İssledovaniya po istorii kulturı narodov Vostoka. M. , -L., 1960.
Buduqlu–Piriyev V. Buduq və buduqlular. Bakı. 1994.
Rəcəbov Ə. Məmmədov Y. Orxon-Yenisey abidələri. Bakı, 1993.
Qeybullayev Q. Azərbaycanlılarda ailə və nigah. I hissə. Bakı, 1994.

# II FƏSİL

## QOHUMLUQ MÜNASİBƏTLƏRİ VƏ AİLƏ MƏRASİMLƏRİ

XIX –XX əsrin əvvəllərinədək Azərbaycanın bir çox bölgələrində olduğu kimi Şahdağ kəndlərində də qan qohumluğuna əsaslanan patriarxal ailə quruluşu xarakterik idi. Təsərrüfat və ideologi birlik forması olan belə patronomiyalar Şahdağ xalqlarında "kök", "məhəllə", "qəbilə", "yux" kimi terminlərlə ifadə edilirdi və hər bir patronomiyanın öz piri, qəbiristanlığı var idi. Maraqlıdır ki, avarlarda da patranomiyanı ifadə edən termin "kibil" (qəbil-qəbilə) idi. Bundan başqa avarlarda qohumluq termini olan "xıdı" kəlməsi (əmiuşaqları) xınalıqlılar arasında böyük ailə başçısini ifadə edən "soyçı**xıdı**" kəlməsindəki xıdı kompanenti ilə eyniyyət təşkil edirdi. XIX əsrin sonlarından etibarən Şahdağ məhəllə və qəbilələrini daha kiçik patronomik qruplar olan kələ, qantsil, soy kimi qohumluq təşkilatları əvəz etmişdi. Artıq belə patronomik qruplar arasında təsərrüfat birliyi olmasa da ideologi birlik, qohumluq vəzifələri, qarşılıqlı yardım ənənələri müasir dövrümüzədək qorunub saxlanmışdır. Belə ənənlərdən biri də "Xunça " adlanan qohumluq yardımıdır. Azərbaycanın bütün bölgələrində olduğu kimi, Şahdağ xalqları arasında da imkanı olmayan ailəyə qohum-əqrəbanın köməkləşib ev tikməsi adəti var idi. "Xunça" adlanan bu adətin icrası zamanı ev sahibi halva bişırıb barının dıbınə qoyurdu və bununla daköməyə ehtiyacı olduğunu bildirirdi. Bu zaman bütün kənd köməyə gəlirdi. (1, 36) Maraqlıdır ki, Şəki-Zaqatala bölgəsinin Kötüklü kəndində yaşayan ingiloylar arasında

da “xon” adlanan qohum birliyi mövcud idi. Ümumiyyətlə, Zaqatala rayonu əhalisi, xüsusilə də avarlar və ingiloylar xonça sözünü xon kimi tələffüz edirlər. Azərbaycanın qədim ailə məişətinin bəzi ənənələrini əks etdirən, XIII əsrə aid “Dastani- Əhməd Harami” poemasında da xonça sözü xon kimi ifadə edilmişdi: “Naiblər o saat xonlar gətirdi. (2, 166) Göründüyü kimi istər “xon”, istərsə də “xunça” (xonça) kəlməsi qohum birliyini ifadə edir. Bizcə qohumluq əlaqələrinin başlanğıcında gəlinə aparılan “xonça”lar məhz qohum birliklərinin qarşılıqlı yardım ənənəsindən doğmuşdur. Məlumdur ki, Azərbaycanda toy mərasimləri zamanı gəlinə nişan aparılarkən hər bir qohum ailənin ayrıca xonça tutmaq adəti geniş yayılmışdır. Qohumluq birliyinin bu qədim ənənəsi XII əsr Azərbaycan şairi Xaqani Şirvaniyə aid olan “Muğların adətincə xonça götür” misrasında da öz əksini tapmışdı (3, 136). Qeyd etmək lazımdır ki, türkmənşəli muğ etnonimi Azərbaycanın bir sıra şimal-qərb toponimlərində də (Samux, Qoxmux, Muxas, Muxbulaq və s.) toponimlərində əks olunmuşdur (4, 173).

Şahdağ kəndlərində daha çox qohumluq birliyini yaşatmaq üçün patranomiya daxilində – endoqam nikahlara. xüsusilə, əmiuşaqları arsındakı nikahlara üstünlük verilirdi. Qarışıq nikahlar isə yolverilməz idi. Məhz belə nikah qaydaları şahdağ xalqlarının öz spesifikliyini qoruyub saxlamasında özünəməxsus rol oynamışdi.

“Şahdağ xalqları”nın ailə məraimlərində, xüsusilə də, toy mərasimlərində qədim nəsli-qəbilə quruluşuna xas qayda-qanunların qalıqları indi də qismən qorunub saxlanmışdır. Belə ki, ”Şahdağ xalqları”nın toylarında qədim ənənələrə görə bəy və gəlinin dayıları mühüm rol

oynayırdı. Bu qədim ana ailəsindən (matriarxat) ata ailəsinə (patriarxat) keçid dövrünün ən aşkar nişanəsi idi. Məlumdur ki, bu keçid dövründə artıq nəsli kişi idarə etsə də, belə patrilokal ortamda doğulan uşaqlar yenə də ana nəslinə mənsub sayılırdılar və onların tərbiyəsində dayı atadan daha mühüm rol oynayırdı. Azərbaycanlılarda müşahidə olunan "Qız qarıyanda ağırlıq dayısının üzərinə düşür "deyimi də bəlkə bununla bağlıdır. Bu qədim ənənənin izlərinin müşahidə edildiyi "Şahdağ xalqları"nın toy mərasimlərində o dövrün tədqiqatçılarının da yazdığı kimi bəy öz dayısı evindən gəlini gətirməyə yola düşür, həmçinin gəlin də öz dayısı evindən gəlin köçür. Bəy evinə də gəlini cilovdar sifətilə dayısı və ya qardaşı müşayət edirdi (bax: 1, 55; 5, 204; 6). Maraqlıdır ki, Azərbaycanın Şəki-Zaqatala bölgəsində məskunlaşan və qədim alban tayfalarının varislərindən olan udilərin də toy mərasimlərində dayı xüsusi rol oynayır.

Azərbaycanın bütün bölgələrində olduğu kimi Şahdağ kəndlərində də ailə mərasimləri (toy, doğum və s.) öz inam və sınamaları, magik ayinləri ilə zəngin idi. Minilliklər boyu mövcud olan ibtidai inamların və dinlərin qalıqları məhz ailə məişəti ilə bağlı mərasim və ayinlərdə qorunub saxlanmışdır. Belə mərasim və ayinlər insanları bədnəzərdən və pis ruhlardan qorumaq, ruhları razı salmaq, xoşbəxtlik, məhsuldarlıq, bərəkət arzusu ilə icra edilirdi. Qeyd etmək lazımdır ki, müxtəlif simvollarla zəngin olan ayinlər hər bir etnosa spesifiklik qazandırır. Hər bir xalqın etnik tarixi müəyyən dərəcədə həmin xalqa xas olan mərasim və ayinlər sistemində öz əksini tapır. Azərbaycanda yaşayan azsaylı xalqların adət-ənənələrində də bütövlükdə azərbaycanlılara xas olan ümumi etnik əlamətlər üstünlük təşkil etsə də mərasim və ayinlər sistemində bəzi

pesifik xüsusiyyətlər də qalmaqdadır. Bu çox zaman mahiyyəti eyni olan ayinlərin fərqli şəkildə ifadə edilməsində özünü biruzə verir. İcra olunan ayinlərin mahiyyəti eyni olsa da, fərqli şəkildə ifadə edilən simvollarla zəngindir. Məsələn, toy mərasimlərinin ilkin mərhələsi olan "qızbəyənmə" adəti "Şahdağ" xalqları arasında özünəməxsus şəkildə icra edilirdi: əsasən toy şənliklərində bəyənilən qızı oğlanın anası və ya bacısı rəqsə dəvət adərək çiyninə şal atırdılar. Bu, artıq qızın nişanlanması demək idi. Bu adətin təsiri altında xalq arasında "Toydan toy törəyər" və ya "Toy toyu gətirər" kimi məsəllər yaranmışdır. Ümumiyyətlə, qədimlərdə Azərbaycanda razılıq əlaməti kimi qızın oğlana şal və ya baş yaylığını verməsi adəti geniş yayılmışdı. Bu adətin izləri başqa bir şəkildə son zamanlara qədər Azərbaycanın bir çox bölgələrində müşahidə edilirdi. Məsələn, Qarabağ bolgəsində nigaha razılıq əlaməti olaraq qızın oğlana verdiyi qırmızı yaylıq elçilik zamanı qız evinə göstərilirdi və bununla da tərəflər razılığa gəlirdilər (13).

Hələ qədim zamanlardan bal təzə ailə üçün xeyir, bərəkət, şirin ömür rəmzi hesab edildiyi üçün Azərbaycan toy mərasimlərində özünəməxsus yer tutmuşdur. Hal-hazırda qədim daşlaşmış arı pətəyi Xınalıq muzeyində saxlanılır (şəkil 1). Azərbaycanın müxtəlif bölgələrində bu ayin fərqli formalarda icra edilirdi. Məsələn, Şəki-Zaqatala bölgəsində yaşayan Azərbaycan türklərində gəlin bəy evinə girərkən barmağını bala batırıb qapıya yaxırdı (bu adət Anadolu türklərində də mövcuddur), udilərdə isə keçmişdə 3 gün davam edən toyun axırıncı günü bəyi bal qatılmış suda çimdirirdilər. Lənkəran-Astara bölgəsində yaşayan talışlarda isə gəlin başında bir kasa balla bəy evinə girirdi və bu bal 7 oğlan uşağına paylanırdı.



Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Belə bir ənənə “Şahdağ xalqlarının" “çörəkkəsdi” (7) adlanan elçilik mərasimində də öz əksini tapmışdı. Şahdağ etnik qrupuna aid edilən etnoslar arasında bu adət özünəməxsus şəkildə icra edilirdi: razılıq simvolu kimi söz kəsən ağsaqqallar lavaşa yağ-bal yaxaraq dürmələyib iki yerə bölərək yeyir, oğlan və qız üçün də pay ayırırdılar (5; 6). Bu qədim sözkəsmə adətinin izləri azərbaycanlılar arsında çox yayılmış olan “Sözünü yağ-balla kəsim” ifadəsində də özünü göstərir.

“Şahdağ xalqları” arasında “Gəlin şərbəti “ ayininin icrası zamanı da gəlin özü ilə şirinlik simvolu kimi “gəlin bardağı” adlanan bir qabda ballı şərbət gətirərək barmağını bu şərbətə batırdıqdan sonra içmək üçün qonaqlara paylanırdı.

Azərbaycanın qədim əhalısinin inanclar sistemində Günəş kultunun izləri daha çox özünü biruzə verir. Günəşin qoruyucu qüvvəsinə inanan Şahdağ xalqlarının da qədim məişət ənənələrində bu inancların izi özünü göstərməkdədir. Şahdağ xalqlarının toy mərasimlərində gəlinin başına düyü, buğda, şirniyyatla bərabər xırda dəmir mıxların və kömür parçalarının da səpilməsi adəti var idi. Azərbaycan mifik görüşlərində” göy qübbəsi dəmirdən döyülmüş bir tabaq kimi, günəş isə kürədə qızdırılmış dəmir parçası kimi” (7, 89) təsəvvür edilirdi. Bu baxımdan dəmirin də günəşin göydən düşmüş bir parçası oiduğuna inam var idi. . Xalq arasındakı inama görə cin, şeytan metalın səsindən qorxub dağılışdığı üçün Şahdağ xalqlarında gəlin bəy evinə girərkən ayağını mis məcməyiyə basaraq içəri keçməli idi.

Şahdağ xalqlarının toy mərasimlərində bəzədilən şaxdan qızardılmış xoruz asılması adəti də Günəş kultunun qalıqlarındandır. Umumiyyətlə, xoruz günəşin doğmasını xəbər verdiyinə görə günəş və məhsuldarlıq simvolu kimi

Şəki-Zaqatala bölgəsinin azsaylı xalqlarının da toy mərasimlərində özünəməxsus yer tutmuşdur. Məsələn, udilərdə qız evinə qızardılmış xoruz və 3 yumurta göndərilməsi, avarlarda gəlini müşayət edənlərin bəy evinə diri xoruz gətirməsi adətləri və s. mövcud idi.

Beləliklə, yuxarıda aparılan paralellər və adət-ənənələrindəki oxşar xüsusiyyətlər bir daha təsdiq edir ki, Şahdağ ətrafında məskunlaşan xınalıq **qrız, hapıt, buduq**larla, Azərbaycanın digər azsaylı xalqlarının (udilər, avarlar, ingiloylar və s.) məskun olduğu Şəki-Zaqatala bölgəsinin əhalisi ilə etnogenetik əlaqələri mövcud olmuşdur.

"Şahdağ xalqları"nda gəlin köçən qıza "xeyirlik" kimi bir çimdik ocaq külü verilməsi adəti (13) günəş və onun simvolları kimi od, ocağa sitayişlə bağlı idi. Gəlini aparmağa gələn oğlan evi adətə görə qız evindən bir şey, xüsusilə kül və ya köz götürməyə çalışırdı. Buna yol verməmək üçün qız anası özü əvvəlcədən "xeyrirlik" verirdi. Bundan sonra evdən bir şey götürmək olmazdı. Bu adət talışlar arasında mövcud olmuşdur və talışlar bu adətlə bağlı belə bir ifadə də işlədirlər:" Ata evinin külü şirin olar".

Şahdağ etnik qruplarından biri olan **qrız**larda toy ərəfəsində bəyin 7 atlı ilə pirə gedib onun başına dolanması adəti mövcuddur. Məlumdur ki, 7 rəqəmi qədum türk xalqlarının, o cümlədən azərbaycanlıların astral inamları ilə bağlıdır. Astranomik biliklərə əsaslanan qədim inanclar sistemindəki bir anlayışa görə 7 səma cismi qütb ulduzu ətrafında fırlanaraq ondan güc alır. Görünür, yuxarıda təsvir edilən ayin məhz bu inamın təsiri ilə icra edilirdi.

Şahdağ xalqlarının doğum mərasimlərində də dini-mifik təsəvvürlər özünəməxsus yer tuturdu. Xınalıqda xalq

arasındakı rəvayətə görə göydən ildırım çaxarkən yerə düşən və "baba qolu" adlanan qırmızı daşının uşaqları və zahı qadınları bütün bəlalardan və bəd nəzərdən qoruyacağına inam var idi və hər bir evdə belə qırmızı daşının olması vacib sayılırdı (şəkil 3). Maraqlıdır ki, azərbaycanlıların etnogenezində mühüm rol oynayan türkmənşəli skif (iskit) tayfalarının sitayiş etdikləri Qoytosir adlı günəş tanrısı tədqiqatçılar tərəfindən "qoy-göy və tesir-deşir söz birləşməsi olaraq göyü deşən, göyü yarıb gələn (şüa), göylər Tanrısı Papay isə baba-ulu baba" kimi izah olunur (8). "Baba qolu" (xınalıqlar bu sözü "baba qulu "şəklində ifadə edirlər) daşının da məhz bu qədim skif inancının izlərini daşıdığını ehtimal etmək olar.

Şahdağ kəndlərində körpələri və zahıları qorumaq üçün onların üstünə "hal" dabanı adlı sarı rəngli hamar sümükdən muncuq taxılması müşahidə edilsə də Azərbaycanda "hal", "hal arvadı", "hal anası" adi ilə tanınan ruhu Şahdağ xalqları daha çox "Istar", "Istar Meram" adlandırırlar (9, 57). Məlumdur ki, təmiz və pak ailə həyatının tərənnüm edildiyi Bilqamıs dastanında ailələri dağıtmağa çalışan İştar obrazı cəmiyyət üçün rüsvayçı bir qadındir, şər işlərlə məşğul olur, ilahə olsa da sevilmir. Beləliklə də, ailənin əsasını təşkil edən uşaqlar və zahı qadınlara təhlükə yaradan İstar ruhuna inam bu qədim Azərbaycan sakinlərinin dini-mifologı dünya-görüşlərinin Şumer mədəniyyətindən, eyni zamanda "Bilqamıs" dastanından qaynaqlandığını görürük. Eyni zamanda al ruhu ilə eyniləşdirilən "İstar Meram"ruhunun adında qədim dinlərin bir-birindən təsirlənməsi də özünü aydın biruzə verir. Qədim Şumer ilahəsi İştar və xristian ilahəsi Məryəm – hər ikisi sevgi və məhəbbət simvoludur.

Məlumdur ki, qədim türk inanclar sistemində Humay ilahəsinə – bəşəriyyətin qadın başlanğıcına, uşaqların himayədarı, məhsuldarlıq ilahəsinə inam olmuşdur. Maraqlıdır ki, Humay simvolunun işarəsinə (10, 163) bənzər simvolik işarələrə Xinalıq evlərinin spesifik arxitektur elementi olan ev sütunlarındakı taclarda da rast gəlmək olur. Hazırda belə naxışlı sütunlar Xınalıq muzeyində və Cümə məscidində mövcuddur. Bu qədim türk inancının xristianlıq dövründə Məryəm ana obrazına keçməsi (10, 163) görünür "Şahdağ xalqlarında bu obrazın İstar-Meram şəklinə düşməsinə səbəb olmuşdur.

Maraqlıdır ki, Şəki-Zaqatala bölgəsində də doğum mərasimlərində doğumu asanlaşdırmaq üçün "Məryəm çəngəli" adlı otdan və ya "Məryəm tükü"ndən istifadə edirdilər. Görünür hal (Humay) ruhu kimi "İstar Meram" da ikili, ziddiyyətli xarakterə malik olmuşdur və ilk vaxtlar xeyirxah ruh sayılsa da, sonralar bəd ruha çevrilmişdir. Məlumdur ki, bir çox türk xalqlarında məhsuldarlıq, doğum ilahəsi, uşaqların mühafizəçisi və ailə ocağının hamisi olan Humay ilahəsi də eyni zamanda "ölüm mələyi, ölənlərin qəlbini götürən ruh" (11, 200) hal arvadı, hal anası vəs. kimi tanınırdı.

Şahdağ kəndlərində uşağı xəstəlikdən qorumaq üçün qırmızı və ya sarı rəngli heyvanı (dana və ya qoyun) kəndin ətrafında dolandıraraq qurban kəsmək adəti mövcud olmuşdur. Qədim inanclar sistemində qırmızı və sarı rənglərin də günəşin simvolu kimi müqəddəsləşdirildiyi məlumdur. Qədim Şərq mifologiyasına gorə qırmızi rəngli qoyun günəş şüasından doğulmuşdu (12, 417).

Xınalıq kəndində uşaqların bədnəzərdən qorunması ilə bağlı cox qədim bir adətin də qorunub saxlandığının şahidi olduq. Bir neçə qız uşağından sonra döğulan

oğlanın başının ortasındakı kəkil anadan olandan 7 yaşınadək kəsilmir, hörük halında saxlanır. Bu saç yalnız ziyarətgahda həzir paylayıb qurban kəsdikdən sonra kəsilir (şəkil 4). Bu adətə Şəki-Zaqatala bölgəsi əhalisi arasında, xüsusilə udinlərdə də rast gılinir (14). Maraqlıdır ki, kumıklar arasında bu adətə rast gəlinirdi. Belə kəkil adətən həyatı təhlükədə olan oğlan uşaqlarına qoyulurdu. Kumıkların inamına görə Allah yuxarıdan bu kəkili görüb uşağı qoruyacaq (10, 136). Etnoqrfik ekspedisiya zamanı belə bir adəti müşahidə etdik.

Gəldiyimiz qənaətə görə tarix boyu müxtəlıf din və mədəniyyətlərdən təsirlənsələr də qədim inanclar sisteminin qalıqlarını qoruyub saxlayan bütün azərbaycanlılar kimi Şahdağ etnik qrupları da tarixi zaman içərisində qədim inanclar sistemini İslam düşüncə tərzi ilə birləşdirərək yeni bir sintez yaratmış və bununla da qədim dini dünyagörüşlərini bu günədək özünəməxsus şəkildə yaşatmışlar.

***


1. Volkova. Göstərilən əsəri.
2. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. III c.
3. Xaqani. Seçilmiş əsərləri. Bakı. 1987.
4. Qeybullayev Q. K etnoqenezu azerbaydjdancev.
5. Cavadov Q. Göstərilən əsəri.
6. Acalov A. M. Novruzov N. D. “Al” tapınışı və onun izləri. Azərbaycan filologiya məsələləri. Bakı, 1993.
7. Quliyev H. A. Bəxtiyarov S. A. Azərbaycanda qədim dini ayinlər və onların məişətdə qalıqları. Bakı. 1968.
8. Qeybullayev Q. Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı, 1996.

9. Arxeoloqiçeskie i etnoqrafiçeskie izıskaniya v Azerbaycane. (1977q) Bakı 1980.
10. Murad Adjı. Evropa, tyurki, Velikaya Step. M. , 1998.
11. Neklyudov S. Y. Mifologiya tyurkskix i monqolskix narodov. Tyurkologiçeskiy sbornik 1977. M. , 1981.
12. Şternberq İ. Y. Pervobıtnaya religiya v svete etnoqrafii. L. , 1936.
13. Qeybullayev Q. Azərbaycanlılarda ailə və nikah. I hissə. Bakı, 1994.
14. Paşayeva M. Azərbaycanlıların toy mərasimlərində ayinlərin rolu. Folklor və etnoqrafiya. 2005. N 3.

III FƏSİL

## ŞAHDAĞ XALQLARINDA PIR INANCLARI

Azərbaycanın qədim və səfalı guşələrindən biri olan Quba bölgəsində, Şahdağ, Tufan dağı, Baba dağı, Qiblə dağı kimi yüksək dağ silsilələri arasında yerləşən Xınalıq, Hapıt, Qrız, Buduq kimi kəndlər tarixin və təbiətin yaratdığı özünəməxsus etnoqrafiya muzeyini xatirladır. Bu ərazidə məskunlaşan və tarixi-etnoqrafik ədbiyyatda "Şahdağ xalqları" kimi ümumiləşdirilən xınalıqlar qrızlar, buduqlar haputlar dünyanin etnik xəritəsində yalnız Azərbaycanda qeydə alınmışlar. Özlərinə məxsus etnoqrafik xüsusiyyətləri ilə seçilən bu etnik qruplar Azərbaycanın qədum sakinlərindən sayılırlar.

Hər bir xalqın mənəvi mədəniyyətinin bünövrəsini təşkil edən müqəddəs yerlər (ziyarətgahlar, ocaqlar, pirlər vəs.) millətin mənəvi kimliyini ortaya qoyur. Əsrlər öncə torpaqlarımızda yaşayan soydaşlarımızın bizə miras qoyduqları bu qiymətli dəlilləri araşdırmaq maddi və mənəvi mədəniyyət tariximizi zənginləşdirmək baxımından mühüm elmi əhəmiyyət kəsb edir. Bu qədim sitayiş yerləri xalqın tarixinin izlərini yaşadan və keçmişlə bu gün arasında körpü yaradan mənəvi sərvətdir.

Azərbaycanın bütün bölgələri kimi, Quba rayonu ərazisində Şahdağ ətrafında yerləşən Xınalıq, Qrız Haput, Buduq kəndləri də müxtəlif pirlər, ziyarətgahlarla zəngindir. Şahdağ kəndlərindəki pirlərdə də bütün Azərbaycan ərazisində olduğu kimi İslamdan öncəki inancların izləri özünü açıq-aşkar biruzə verir. Eyni zamanda bu pir inancları islami düşüncə tərzinə də uyğunlaşdırılmışdır. Şahdağ ətrafında yerləşən bu pirləri aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Oda, suya, mağaralara, dağa, daşa sitayişin izlərini daşıyan təbii məbədlər - Xınalıq atəşgahı, Qırx Abdal piri, Küləxana piri, Babadilim piri və s.

2. Atalar-əğcdadlar kultu ilə bağlı olan nəsli qəbilə başçısı, müqədəs şəxslərin qəbir abidələri - “Şıx İsrafil baba”, “Şıxsalburuz baba”, “Cabbar baba”, ”Xıdır Nəbi” pirləri, Möhüc baba piri və s.

XIX əsrədək Azrbaycanın əksər bölgələrində olduğu kimi Şahdağ kəndlərində də hər bir məhəllənin öz piri var idi. Olduqca mürəkkəb qohumluq ənənələri olan azərbaycanlılarda nəslə daxil olan qohum ailə qrupları arasındakı əlaqə sosial, iqtisadi amillərlə bərabər, real və mifik əcdadlara münasibətlə də müəyyənləşirdi. Belə ki, hər bir nəsil öz keçmişini, mənşəyini təsdiq etmək üçün mənsub olduqları qəbilə və tayfaların mifk və ya real banisi olan əcdadlarını müqəddəsləşdirirdi. Şahdağ kəndlərindəki pirlərın də əksəriyyəti ilə bağlı rəvayətlərin mərkəzində, əsasən ilk əcdadın müqəddəsləşdirilərək ilk insanla eyniləşdirilməsi durur. Şahdağ əhalisi də bütün azərbaycanlılar kimi əcdad kultunun nişanəsi olaraq valideynlərindən başlayaraq qəbilə və tayfalarının banisi olan əcdadlarına diqqət və hörmət göstərərək onların dəfn olunduqları torpaqları müqəddəsləşdirir, hər bir məhəllə özünü müəyyən real və ya mifik əcdalar nəslinin bir hissəsi hesab edərək əcdadının yatdığı topaqı pir hesab edir Bu pirlər:

**Xınalıq atəşgahı**. Xınalıq kəndinin 5-6 km-liyində Qızıl qaya dağı yaxınlığında yerləşən və xınalıq dilində “Ca yuvr ciqa” (od yeri) adlanan (1, 14) təbii yanar qazın çıxdığı ərazi yerli əhali tərəfindən müqəddəs ocaq kimi qəbul edilən təbii məbədlərdən biridir. Adətən ailə qurmaq, övlad sahibi olmaq diləyilə Xınalıq atəşgahına

gələn yerli əhali qurbanlıq heyvanı kənddə kəsdirərək onun ətini bu müqəddəs ocağa gətirib yerdən çıxan alov dilimləri üzərində bişirirdilər və ziyarətə gələnlərə nəzir kimi paylayırdılar. Lakin bu atəşgahın atəşpərəstlik etiqadı ilə bağlı olduğunu düzgün hesab etmək olmaz. Çünki atəşpərəstlikdə odun ailə və ocaq qoruyucu funksiyası yoxdur (2). Həm də Zərdüşt kahinləri insan nəfəsinin belə müqəddəs odu kirlədəcəyindən qorxduqları üçün hətta ağızlarını və burunlarını da bağlayaraq oda yaxınlaşdiqları halda, türklər hər zaman oda təmizləyici element kimi baxmışlar. Bizans mənbələrində də türklərin oda qoruyucu və paklandırıcı bir qüvvə kimi sitayiş etdikləri barədə məlumatlara rast gəlinir (3, 497-500; 4, 95-103). Məsələn tuvalılar hər gün oda yemək verərək "Müqəddəs od bizi təmizlə və bizə rəhm et!" deyə dua edirlər (5, 167). Sibir və Altay türklərində də od ruhuna pay ayrilmsı adəti mövcudur. Xınalıq atəşgahında da qurbanlıq ətinin yerdən çıxan alov dilimləri üzərində bişirilməsi və nəzir kimi paylanmasının məhz bu qədim türk inancının izlərini daşıdığı şübhəsizdir. Eyni zamanda türklərin od və ocaq ruhuna sayqı işarəti olaraq odun üstünə pis və çirkli şeyləri atmaqdandan da çəkindikləri məlumdur (6, 106). Yəqin ki, elə bu səbəbdən Xınalıq atəşgahında da heyvan kəsmək, ocağı çirkləndirmək günah sayılırdı. Adətə görə qurbanlıq heyvan ancaq kənddə kəsildikdən sonra onun əti atəşgaha gətirilirdi.

Xınalıq atəşgahında odla fala baxma ənənəsi də geniş yayılmışdı. Ailə qurmaq, övlad sahibi olmaq diləyilə ziyarətgaha gələnlər bişirdikləri qurban ətini nəzir kimi payladıqdan sonra niyyətlərinin qəbul olub olmadığını bilmək üçün od falına da baxardılar. Bunun üçün alovun çıxdığı yerin yaxınlığında kiçik bir çala qazaraq ora od

yaxınlaşdırardılar və əgər yerdən alov dilimləri çıxardısa diləklərinə çatacaqlarına inanırdılar. Pirə gələn qızlar və gəlinlər ağac budaqlarından beşik düzəldərək ona alov yaxınlaşdırardılar. Əgər həmən yerdən alov çıxmazdısa bu, fala baxan qız və ya gəlinin sonsuz olacağı demək idi. Əksinə alov püskürərdisə gəlinin övladı olacağına inanardılar (7, 59). Ümumiyyətlə, türk mifoloji sistemində ailə, soy simvolu olan od-ocaq ailə ocağını qoruyan, uşaqlara can verən bir inancdır və göylərin bir parçası kimi qəbul edilən od hər cür bəladan qorumaq gücünə sahibdir. Günəşlə bağlı şəkildə mövcud olan od kultuna şumerlərdə də rast gəlinir (2, 22). Qeyd etmək lazımdır ki, qədim türklərin od vasitəsilə gələcəyi öyrənmək istədikləri, odla fala baxma ənənələri, oda gələcəkdən xəbər verən bir varlıq kimi baxılması barədə Bizans mənbələrində də məlumatlar mövcudur (3, 497-50). Göründüyü kimi Xınalıq atəşgahında icra olunan ayinlər qədim türk inanclar sisteminin izlərini qoruyub saxlamışdır.

**"Qırx Abdal" piri** (şəkil 5). Ziyarətgahlardan biri də Xınalıq kəndinin 2 km-liyində yerləşən "Qırx Abdal" adlı su piridir. İri qaya altinda bir neçə bulağın olduğu və qayadan damcılayan su damlalarının da bəzən nazik bulaq çevrildiyi "Qırx Abdal" ziyarətgahı su kultu ilə bağlı pirdir. Uşaq diləyilə bura gələn sonsuz qadınlar budaqlardan beşik hazırlayar və qaya çıxıntılarından asardılar. Daha sonra da pirə nəzir kimi gətirdikləri halvanı paylayardılar.

Bundan başqa, Xınalıq kəndi yaxınlığında dağ yarğanindan çıxan Alxas bulağının suyu da kənd əhalisi tərəfindən müqəddəs hesab edilirdi. Kənd əhalisinin söylədiyinə görə təqribən aprel ayından başlayaraq bu

yarğandan su çıxmaqa başlayır və payızın axırında kəsilir. Övlad isəyən qadın və ya hər hansı bir niyyət tutan adam yazın ilk günlərində dağ yarğanından açılan suyun ilk şahidi olardısa, muradına çatacağına inanırdı.

Maddi və mənəvi mədəniyyətlərinin bir sıra ənənəvi xüsusiyyətlərini bu günümüzədək qoruyub saxlamış "Şahdağ xalqlarında" kökü patriarxal-nəsli icma quruluşuna gedib cıxan qədim ənənəyə görə hər bir ailə icmasının (məhəllə) öz piri mövcud idi. Azərbaycanın əksər bölgələrində olduğu kimi, Şahdağ kəndlərində də pirlərin əksəriyyəti böyük ailə və ya patronomiya başçılarının, ağsaqqaların dəfn olunduğu yerlərdir. Şahdağ kəndlələrində pir adlarının tərkibindəki nəslin başçısı, əcdad anlamına gələn "baba" sözü də buna sübutdur. Məsələn, "Cabbar baba piri", "Şıx Şalburuzbaba pir", "Şıx İsrafil baba piri", "Möhüc baba piri ", "Muğan baba piri" və s.

**Pir Cömərt** və ya Əbu Müslüm məscidi (şəkil 6). Xınalıq kəndinin ən qədim və ən əsas piri sayilir. Ümumiyyətlə, Xınalıq əhalisi kənddə mövcud olan bütün məscidləri pir adlandırır. Yerli əhalinin söyıədiklərinə görə Xınalıq əhalisi islamı ilk dəfə məhz Pir Cömərtdə qəbul etmişlər və Əbu Müslüm bu kəndə islamın banisi olmuşdur. Bundan sonra bu qədim sitayiş yerinin adi müsəlmanlaşdırılaraq Əbu Müslüm məscidinə çevrilmişdir. Məscidin bu yeni islami adının mənası da da bu fikri təsdiq edir. Məlumdur ki, Əbu Müslüm Azərbaycan dilində müsəlmanların atası deməkdir. Ümumiyyətlə, tədqiqatçılar bu pirin islamdan öncə də sitayiş yeri olması barədə müxtəlif ehtimallar irəli sürmüşlər. Bəzi tədqiqatçılar "Piri Comərt" abidəsinin adını qədim dini rəvayətlərdəki insan nəslinin banisi, ilk insan Qomardla əlaqələndirirlər 8, 59.) Digər ehtimala görə bu abidənin

yerində Günəş məbədi yerləşmişdi və ərəblər kəndi tutduqdan sonra bu qədim ibadətgahı müsəlmanlaşdırmışdılar (1). Zənnimizcə, bu daha məqsədəuyğun fikirdir. Etnoqrafik çöl ekspedisiysı zamanı bu abidənin divarlarında üzərində balıqqulaqları olan çox iri daşların da olduğunu müşahidə etdik və bu tip daşlara yalnız kənddən xeyli aralıda yerləşən Qiblə dağında rast gəlinir. Xalq arasında gəzən rəvayətə görə bu pir ata-oğul tərəfindən tikilib. Bu daşları əfsanəvi və qeyri-adi gücə sahib olan oğul Qiblə dağından bura tullamış, atası isə bu piri dağın təpəsində tikmişdir (informator R. Məlikli). Məlumdur ki, şumerlər də məbədlərini yüksəkliklərdə, dağın təpəsində inşa edirdilər. Üzərində baliqqulaqı olan daşlar da hər halda qədim dini təsəvvürlərin ilərini daşıyır. Belə ki xalq içərisində qarnıyarıq, qız muncuğu və s. adlarla tanınan belə balıqqulağılar Xınalıqda da qız uşaqlarının paltarına bədnəzərə qarşı tikilirdi. Ümumiyyətlə, belə balıqqulağı muncuqları Azərbaycan ərazisində e. ə. son əsrlərə aid küp qəbirlərindən tapılmışdir (9). Beləliklə, bu qədim pir inancının nümunəsində bir daha aydın olur ki, xalq İslam dini ilə bərabər öz əvvəlki inanc sistenini də qoruyub saxlamağa çalışaraq özündən əvvəl yaranmış dini ənənlərlə birləşdirərərək spesifik bir sintez yaratmışdır.

Maraqlıdır ki, bu qədim ziyarətgaha xalq arasında bəzən "Bürc məscidi" də deyilirdi (10, 170)). Məlumdrur ki, qədim türk tayfalarından olan qıpçaqların da bir qolu bürc adlanırdı (11, 78). Bu məlumat bəlkə də Şahdağ xalqlarının qədim türk köklərindən xəbər verir. Qeyd etmək lazımdır ki, bəzi Avropa mənbələrində qıpçaqların qet adlandırıldığı məlumdur (12, 77). Xınalıqların özlərini "ket" adlandırmasını nəzərə alsaq onların qədim qıpçaq tayfalarının izlərini daşıdığını ehtimal etmək olar.

**Cümə məscidi** (şəkil 7). Yuxarıda qeyd etdiyimiz kimi, Xınalıq əhalisi kənddəki bütün məscidləri, o cümlədən kəndin mərkəzində və kəndin ən hündür yerində yerləşən Cümə məscidini də pir adlandırırdılar. Bu qədim ziyarətgahın da yüksəklikdə və günçıxan tərəfdə yerləşməsi göstərir ki, çox mühüm astronomik biliklərə malik olan və günəşə sitayiş edən qədim Azərbaycan əhalisi də şumerlərdə olduğu kimi " öz allahlarını göyə yaxın yerdə, təpədə, dağ başında görmək istəyirdilər (13). Kəndin ən qədim pirlərindən sayılan Cümə məscidinin içərisindəki tac şəkilli qədim taxta sütunun üzərindəki naxışlarda da günəş rəmzinin izlərini aydın görmək olur (şəkil 8). Maraqlıdır ki, bu məscidin divarlarına qoyulmuş qədim daşların üzərində ərəb yazıları ilə yanaşı naməlum işarələrə də rast gəlinir. Ehtimal ki, bu qədim türk runi yazılarının izləridir (şəkil 9). Belə işarələrə Damdamı çayı (Xınalıq ca Damdaminka) yaxınlığındakı şəlalə ilə üzbəüz yerləşən və Kindir dağındakı (Xınalıqca Kindir dahar) sal daşın üzərində rast gəlmək mümkündür. Həmçının Cabbar baba pirinin yerləşdiyi qədim qəbiristanlıqda da naməlum işarəli yazılar və müxtəlif fiqurların həkk olunduğu qədim daş kitabələr mövcuddur (şəkil 10). Qeyd etmək lazımdır ki, Cənubı Azərbaycanın Haput adlı kındindəki qədim məbədin xarabalıqlarında da türk runi yazılarına rast gəlinmişdir (12, 168). Bu məlumatlar "Şahdağ xalqları"nın qədim türk köklərinin olması ehtimalımızı daha da gücləndirir. Bu fakt yazı mədəniyyətimizin qaranlıq, öyrənilməmiş səhifələrindən biri olan Orxon–Yenisey əlifbasının Azərbaycnda da tətbiq edilib edilməməsi məsələsinə aydınlıq gətirə bilər.

**Cabbar baba piri**. Xınalıq əhalisinin qədim inanclar sisteminin qorunub saxlandığı ziyarətgahlardan

olan “Cabbar baba “ piri Xınalıq qəbiristanlığında daş hasara alınmış ərazıdə yerləşir. Kəndin ən güclü və qədim piri sayılan bu ziyarətgahın həyatində hamar sal daş (1, 3x0, 8 m ölçüdə) və onun kənarlarında yerə basdırılmış bir cüt öküz buynuzu şəklində taxta dirək mövcud idi və burada əhali niyyət edərək bu öküz buynuzu formalı taxta dirəklərə müxtəliv əski parçaları bağlayır, qurban kəsilən qoyunu məhz bu dirəklərdən asardılar (8) Xınalığa etdiyimiz etnoqrafik ekspedisiya zamanı müşahidə etdik ki, bu taxta kürələr çıxarılaraq kənara qoyulsa da əhali yenə də onları müqəddəs hesab edərək üzərinə müxtəlif əski parçaları bağlayaraq niyyət edir (şəkil 11) və qurbanlıqlarını buradakı sal daşın üzərində doğrayırlar. Məlumdur ki, qədim Azərbaycan sakinləri astral kultların Yerdə simvolik obrazlarını yaradaraq onları da müqəddəsləşdirirdilər. Xalqımızın dini-mifik təsəvvürlərində öküz, keçi, maral kimi heyvan obrazları Ayın simvolu kimi ilahiləşdirilmişdi (14, 70). Azərbaycanlıların qədim inanclar sistemində özünəməxsus yer tutan öküz obrazı hazırda da xeyir. bərəkət və mülkiyyətin qoruyucu qüvvəsi kimi xalqımızın təfəkküründə yaşamaqdadır və Azərbaycanın əksər rayon və kəndlərində (İsmayıllı, Şəki, Zaqatala və s.) olduğu kimi Xınalıqda da evin divarına, darvazalara və s. vurulmuş aypara formasını xatırladan öküz buynuzunu görmək mümkündür (şəkil 12). Etnoqrafik ekspedisiya zamanı Xınalıq kəndində evlərin divarlarında da aypara formalı daşlara da rast gəldik (şəkil 13).

Göründüyü kimi “Cabbar baba piri”ndə qədim Azərbaycan əhalisinin inanclar sistemində mühüm yer tutan Ay kultunun izləri özünü aşkar biruzə verir. Qədim Azərbaycan sakinləri təzə ayın yerə təsirinin daha güclü olduğuna inanaraq aypara nişanını, o cümlədən apara

formasında olan öküz buynuzlarını Ay kultunun simvollarından biri kimi qəbul edərək müqəddəsləşdirirdilər.

Ümumiyyətlə, arxeoloji tədqiqatlar nəticəsində Azərbaycanın qədim əhalisinin dəfn adətlərində Ay kultunun özünəməxsus yer tutduğu məlumdur (14; 15, 86, 16). Strabon yazırdı ki, insanlar ayın bataraq (ölərək) yenidən doğmasını sevinclə qarşılayaraq özlərinin də öləndən sonra o dünyada yenidən doğulacağlarına inanırdılar (17). Bu məlumat qədim Azərbaycan əhalisinin bəzi qəbir abidələrində, o cümlədən Xınalıq kəndindəki "Cabbar baba piri" abidəsində movcud olan aypara nişanının mahiyyətini anlamağa imkan verir. Maraqlıdır ki, Qəbələ rayonunun Vardanlı kəndində də "Cabbar baba piri" abidəsi ilə eyniyyət təşkil edən, yəni öküz buynuzu şəklində bir cüt taxta dirək basdırılmış tunc dövrünə aid qədim qəbir abidəsi mövcuddur (18, 145). Bu fakt Şahdağ etnik qrupuna aid edilən etnosların Şəki-Zaqatala bölgəsi əhalisi ilə qədim etnogenetik əlaqələrinin olduğuna dəlalət edir və alban tayfalarının varisləri olduğunu və çox qədim tarixə malik etnik qruplardan olduğunu göstərir.

Qeyd etmək lazımdir ki, bu qədim ay pirinin adı islamiyyət dövründə müsəlmanlaşdırılsa da mahiyyəti, demək olar ki, dəyişilməmiş qalmışdır. Məlumdur ki, Cabbar ərəbcə möhtəşəm, böyük deməkdir. Bu da, "Cabbar baba" pirinin Böyük baba anlamına gəldiyinin göstərir. Strabon yazırdı ki, Albaniyada Ay ibadətgahının kahini geniş siyasi səlahiyyətə malik olub hökmdardan sonra ən hörmətli şəxs hesab olunurdu (19). Görünür, Qafqaz Albaniyasının ən mühüm inancını əks etdirən bu qədim ay piri Ay ibadətgahının kahinlərindən birinin məzarı kimi ziyarətgaha çevrilmişdir. Maraqlıdır ki, qəbirin baş tərəfində iki baş daşı qoyulmuşdur. Bunlardan

biri adi qara sal daş olsa da digəri qədim Orxon abidələrində olduğu kimi insan silueti formasında kobud şəkildə yonulmuş ağ daşdan ibarətdir (şəkil 14). Məlumdur ki, Monqolustan ərazisində tapılmış Orxon-Yenisey əlifbasının olduğu qəbir abidəsində də daşdan kobud çəkildə yonulmuş insan heykəli aşkar edilmiıdir (19, 180). Maraqlıdır ki, Gabbar baba pirindəki baş daşı da eyni formada ağ daşdan kobud şəkildə yonulmuş insan heykəlini xatırladır. Həmçinin bu pirin yerləşdiyu qəbiristandakı daşlardan birinin üzərində müşahidə etdiyumiz qədim dini təsəvvürlərə əsaslnan rəsmlər və işarələr böyük bir təsvir kompozisiyası cızıldığını müşahidə etdik (şəkil 10). Bu təsvirlərin qədim Şumer ideologiyası ilə bağlı olduğunu ehtimal etmək olar (13, 51).

Kənd əhalisinin söylədiklərinə görə, ümumiyyətlə, Cabbar baba nəslindən olanlar həmişə müqəddəs sayılmışlar və kəndin ağsaqqllarından olan Hacı Suvahil baba həmin nəslin varisidir. Maraqlıdır ki, Şəki-Zaqatala bölgəsində də Suvagil adlı qədim kənd mövcuddur. Beləliklə də, yuxarıda bəhs etdiyimiz Vardanlı qəbri ilə Cabbar baba qəbrinin eyniyyət təşkil etməsinin təsadüfolmadığı qənaitinə gəlmək olar.

“Cabbar baba” pirində daş kultunun da izlərinə rast gəlininr. Pirin içərisində qoyulmuş müxtəlif ölçülü və yumru formalı daşlar xalq arasındakı rəvayətlərə görə balalayırdı və büna görə də məhsuldarlıq simvolu hesab olunurdu. Piri ziyarəıtə gələn sonsuz qadınlar bu daşları öpərək övlad sahibi olacaqlarına inanırdılar (şəkil 14) Beləliklə, bu qədim pirdə izləri qalan istər ay kultu, istərsə də daş kultu simvolları qədim türk inanclar sisteminin bir parçası idi.

**Xıdır Nəbi piri**. Xınalıq kəndinin cənub hissəsində yerləşən "Xıdır Həbi" piri çay daşlarından hörülmüş divarlarla əhatə olunmuşdur. Pirin düz qapısının ağzında gillə suvanmış qəbir, qəbirin üzərində isə məhsuldarlıq simvolu olan yumru çay daşları var. Bu pir xalq inamına görə xəstələrə (xüsusilə də dişi ağrısına) və səfərə gedənlərə kömək olurdu. Xıdır Nəbi pirinə xüsusilə də yaz ərəfəsində Xıdır Nəbi bayramında qurban gətirmək adəti də mövcuddur. Ziyarətə gələnlər buradakı qəbirin üzərinə arpa səpərdilər. Buna görə də qəbirin ətrafında hər zaman təzə arpa cücərtiləri görmək olardı. (8) Onu da qeyd edək ki, ekspedisiya zamanı biz də pirə arpa gətirib yerə səpmək adətinə rast gəldik. Məlumatçılarımızın söylədiklərinə görə səfərə gedənlər əsasən bu pirə nəzir kimi arpa dənələri gətirirdilər. **

Maraqlıdır ki, İraqda yaşayan türk əsilli kərküklərdə səfərlə bağlı qədim adətə görə "obadan köçmək istəyəndə arpa əkər, arpa göyərəndə köçərdilər"* (20, 21). Bir cəhəti də qeyd etmək lazımdır ki, bütün türk xalqlarında "Xıdır Nəbi", "Xıdır Əlləz", "Xıdır İlyas" adı ilə bilinən Xızır Peyğəmbər inancı mövcuddur və Xızır-Xıdır od, yaşıllıq, dirilik (əbədilik) simvolu olmaqla bərabər yolda qalanlara, itənlərə yardım edən mifoloji obrazdır. (5. 128) Bütün bunlar Şahdağ etnik qrupuna aid olan etnosların qədim türkmənşəli tayfaların varisləri olması ehtimalımızı bir daha təsdiq edir. Bahar mərasimlərində ziyarət olunan Xıdır Nəbi pirində bütün türk xalqlarının qədim mifologi dünyagörüşündə məhsuldarlıq, təbiət və həyat simvolu kimi müqəddəsləşdirilən Xızıra sitayişin qalıqları özünü göstərir.

Xıdır Nəbi pirinə keçmişlərdə gələnlər daha bir qədim ayin icra edərək ziyarətgahdakı qəbirin bir küncündə

yağış damcılarının toplandığı çökəklikdən palçıq götürüb alınlarına yaxırdılar (8). Bu adətə Azərbaycan ədəbiyyatında - Y. V. Çəmənzəminlinin əsərində də təsadüf edilir. Qədim Azərbaycan adətinə görə hörmətli və əziz bir şəxs öləndə hüzr sahibi və hüzrə gələnlər başlarına, paltarlarına palçıq sürtərlərmiş. Maraqlıdır ki, Kərkük dolaylarının yas mərasimlərində bu adət indi də mövcuddur (20, 30).

Yerli əhali bu pirin diş ağrısına da kömək olduğuna inanırdı. Diş ağrısını kəsmək üçün qəbirin ətrafından bir dəstə ot qoparılaraq qəbirin üzərinə qoyulurdu. İnama görə ot çürüdükcə diş ağrısı da kəsməli idi. Burada da ibtidai inanclar sisteminin bir parçası olan magiyanın qalıqlarını görmək mümkündür.

Göründüyü kimi, Xınalıq ərazisində yerlışən "Xıdır Nəbi" piri də kökləri ilkin inanclar sisteminə söykənən qədim pirlərdən biridir.

**Qüllə piri.** Xınalıq kəndində hüzırda ancaq xarabalıqları qalan cox qədim vəmaraqlı arxitekturaya malik olan və qülləvari formada olduğuna görə Qüllə piri adlanan bir ziyarətgah da mövcud olmuşdur. Kənd əhalisinin təsvir etdiyinə görə bu abidə kəndin digər abidələrinə bənzəməyən, olduqca fərqli formada inşa edilmiş qədim bir pir olmuşdur. Məlumatçıların söylədiyinə görə beş və ya altı guşəli bünövrəsi olan və yuxarıya getdikcə daralan formada, ən yuxarı hissəsində gündoğan tərəfə açılan tək bir pəncərəsi olan, qapısı Qiblə dağı tərəfdən açılan bir tikili idi. Məlumdur ki, islam dininə ibadət edənə qədər türklər hətta evləri də üzü şərqə yəni gündoğana tikərdilər. Məlumdur ki, qədim Şumerdə Goy üzünü müşahidə etmək və zikr etmək üçün belə qülləli məbədlər (zikkuratlar) inşa edilirdi (13). Görünür Qüllə piri adlanan bu qədim məbəd

də qədim Azərbaycan sakinləri tərəfindən bu məqsədlə tikilmişdi. Arxeoloqlar qıpçaqların qədim məbədləri haqda yazırdılar ki, bu məbədlərin istiqaməti şərqə doğrudur (12, 167). Qüllə pirinin də yeganə pəncərəsinin şərqə istiqamətlənməsi bu zyarətgahın qədim türk köklərindən xəbər verir.

Kənddə bu abidə ilə bağlı maraqlı bir rəvayət də mövcuddur. Müğan baba adlı bir şəxs müqəddəslik qazanmaq üçün hər gün təkcə bir xurma yeməklə 40 gün bu pirdə yaşamalı idi. Lakin 40-cı gün şeytana uyduğu üçün Muğan baba vergidən məhrum olmuşdu. ***Göründüyü kimi bu rəvayətdə qədim Azərbaycan nağıllarının təsiri hiss olunur. Burəvayətlə bağlı olaraq bəzən Qüllə pirinə Müğam baba piri də deyirdilər. Çox təəsüf ki, bu qədim sitayiş yerinin hazırda yalnız xarabalıqları qalmışdir. Lakin dağılmış qüllənin yerində kənd camaatı tərəfindən İbrahimxəlil piri tikilmişdir.

**Möhüc baba piri** Xınalıq kəndində yerləşən ziyarətgahlardan ilan Möhüc baba piri əsasən xəstə uşaqların gətirildiyi ziyarətgahdır. İnama görə özündən getməsi olan uşaqlar bu pirdə bir neçə saat yatırılmaqla sağalırlar. Ümumiyyətlə, xalq arasında özündən getməsi olan uşaqlar üçün "ələm vurub" ifadəsi işlədirlər və ələm ruhunun olduğuna inanırlar.

**Şıxşalburuz baba** piri də Xınalıq kəndinin qədim pirlərindən sayilir. Kənd əhalisinin söylədiyinə görə bura vaxtilə mollaxana və ya mədrəsə olmuşdur. Mədrəsə sahibi olan Şalburuz baba mədrəsənin içəri otağında yerləşən qaranlıq hücrədə zikr edərmiş. Rəvayətə görə XIII əsrdə İraqdan Xınalığa gələn bu mömin şəxs həmin mədrəsədə tələbələrini oxudarmış. Bunu türbədə tapılmış qədim kitabxana da təsdiq edir. Şıxşalburuz babaya

ehtiram əlaməti olaraq onu öz hücrəsində dəfn edərək ağ daşdan qəbir daşı qoymuşlar. Kənd əhalisi bu ibadətgaha ən cox orucluq ayında namaza yığılırlar.

Maraqlıdır ki, məlumatçılarımızın söylədiklərinə görə eyni adlı pir hazırda Dağıstan ərazisinə aid edilən Rutul rayonu ərazisndə də var və vaxtilə Xınalıq kəndindən Ərənlər baba adlanan müqəddəs dağı aşaraq Rutula gedən yol var idi.

XIX əsrdə Rusiya imperiyası Qafqazda apardığı işğalçılıq müharibəsi nəticəsində "parcala, hökm sür!" müstəmləkə siyasətini həyata keçirərək Azərbaycan ərazisini inzibati bölgələr yaratmaq bəhanəsilə istədiyi şəkildə qayçılamışdı və nəticədə Rutulun da daxil olduğu Samur dairəsi Azərbaycan ərazisindən qoparılaraq Dağıstan ərazisinə qatıldı. Beləliklə də, məkrli müstəmləkə siyasəti nəticəsində Azərbaycan ərazisinin bir hissəsi Azərbaycanın tərkibindən çıxarıldı.

**Tufan dağı.** Şahdağ xalqlarının inanclar sistemində dağ kultu da mühüm yer tutur. Dağlar əhatəsində yaşayan Şahdağ əhalisi bu dağları mifikləşdirərək Tufan dağını, Qiblə dağını, Baba dağını müqəddəsləşdirmiş, onlarla bağlı müxtəlif əfsanələr yaratmışlar. Məlumdur ki, Göylərə-Tanrıya sitayiş edən türklər yüksək dağlara tapınmışlar. Əsasən türkdilli əhalinin məskun olduğu ərazilərdə yayılan və bir sıra dağların adında yad edilən (Gəmiqaya, İlanlı qaya, Ağrı dağı və s.) Nuh mifi xalqımızın yaddaşında hələ çox qədim zamanlardan "Nuh peyğəmbər", "Nuhun tufanı", "Nuh gəmisi" anlayışları Şahdağ kəndlərində də qorunub saxlanmışdır. Ümumiyyətlə, bu qədim mifin qaynağı şumer mənbələrindən götürülmüşdür və Nuh "Bilqamıs"dastanında Ubar Tutunun oğlu Dədə Utnapişti şəklində xatırlanır (22, 144).

"Şahdağ xalqlarının Tufan dağı ilə bağlı əfsanəsi bütün türk xalqlarının dini-mifik dünyagörüşlərində mühüm yer tutan Nuhun tufanı ilə əlaqələndirilərək Ağrı dağı əfsanəsi ilə eyniyyət təşkil edir. Xalq arasındakı rəvayətə görə Nuhun gəmisi Tufan dağına dəyərək parçalanmışdır. Hazırda da Tufan dağı yaxınlığında adını Tufan dağından götürən və əhali arsında müqəddəs sayılan göldə Nuhun parçalanmış gəmisindən qalan taxta parçalarının hələ də qaldığına inanılır. Maraqlıdır ki, iki nohurdan ibarət olan və hər zaman birindən digərinə su axıntısı olan bu gölün suyu hər zaman eyni səviyyədə qalır. Bu nohurlarda suyun heç bir zaman tükənməməsi və mənbəyinin naməlum qalması bu gölün kənd əhalisi arasında mifikləşməsinə səbəb olmuşdur* Buna görə də Şahdağ əhalisi arasında quraqlıq zamanı yüksək dağ silsilələri arasında əmələ gələn bu gölü müqəddəsləşdirərək yağışçağırma ayini zamanı onun suyundan istifadə edirlər. Ümumiyyətlə, yerli əhali həm yağışçağırma, həm də günəşçağırma ayinlərinin icrası zamanı qurban kəsərək Tufan dağı yaxınlığındakı gölü ziyarət edirdilər. Bundan sonra kəndin 1 və ya 2 nüfuzlu ağsaqqalı, gölün müqəddəs sayılan suyundan götürüb mollaya gətirirdilər. O da bu suyu Xınalıq kəndinin yaxınlığında Qudyalçayın yuxarı hissəsində yerləşən Dam-dam çayına (xınalıqlılar bu çaya Dam-damınka deyirlər) tökürək daha sonra birlikdə namaz qılırdılar. Türklərin qədim dini haqqında VI əsrin 70-80-cı illərində tərtib edilmış "Veyşu" və VII əsrin 30-cu illərində qələmə alınmış "Suyşu" adlı salnamələrdə türklərin adətləri barədə yazılırdı ki,. . . Hər il beşinci ayın orta ongünlüyündə hamını yığıb çay qırağında goyün ruhuna qurban kəsirdilər (20, 28).

Əksinə, aramsız yağışlar zamanı günəşçağırma ayini icra edilirdi; "qujul "adlı müqəvva kəndin gəncləri tərəfindən bəzədilərək kənd boyu gəzdirilir və "Günəşçağırma" mahnıları oxuyardılar (və pay yığardılar) və pay yığardılar. Bu zaman gənclərə məhsuldarlıq və bərəkət simvolu kimi yumurta və şirniyyat paylanardı. Bu qədim ayinə Azərbaycanın bütün bölgələrində rast gəlinirdi. Hazırda yalnız əyləncə xarakteri daşıyan bu qədim ayin, təbii ki, qədim Azərbaycan tayfalarınını kocmoqonik inamları ilə əlaqədar idi. Müxtəlif fonetik fərqliliklə səslənən qodu kəlməsi (huda-huday, quda-qodu, qujul vəs.) qədim türk xalqlarında göylər tanrısını ifadə etdiyi şübhəsizdir. XIX əsrə aid bir mənbədə də qodunun Azərbaycan əhalisi tərəfindən "Günəş və Ay "kimi izah olunduğu yazılır (22, 128). Ciddi astral biliklərə sahib olan qədim Azərbaycan sakinləri fəsillərin bir-birini əvəz etməsinini məhz ulduzlar topasının Ay və Günəşlə qarşılaşması ilə əlaqədar olduğunu anlamış və yerdə dini-magik mərasimlərlə təbiət hadisələrinə təsir göstərməyə, bunula da təbiəti özlərinə ram etməyə calışmışlar. Quda-qujul (xınalıqca) kəlməsinin mənşəyinə gəlincə isə qeyd etmək lazımdır ki, qədim şumer, həmçının Azərbaycan münəccimlərinin də müşahidəsində də bahar girəndə goy üzündə oküz və maral adlı ulduz topaları üfüqdə yox olur və yalnız bundan sonra günəş cıxır. Maraqlıdır ki, qədim şümer dillərində öküz-qud, öküz-maral isə qudaa deməkdir. Beləliklə də, minilliklər boyu bütün türkmənşəli xalqların icra etdiyi "Qud-quda", "qodu-qodu" və ya xınalıqların ifadə etdikləri kimi "qujul" mərasiminin həqiqi kökləri üzə cıxır və Azərbaycanın qədim şumer mədəniyyəti ilə dərin etnogenetik əlaqələriinin olduğu ehtimalımız daha artır. Qeyd etmək lazımdır ki. Xinalıq

əhalisinin də dərin astral biliklərə sahib olduğu həm yuxarıda bəhs etdiyimiz qədim kosmoqonik inamların izlərində özünü göstərir, həm də kənd sakini Z. Şərifovun verdiyi məlumata görə Xınalıq əhalisi də göydəki ulduzlar topasının hər birini yerdə simvolik heyvan obrazları ilə özlərinəməxsus şəkildə adlandırmışlar. Məlumatçı xınalıq dilində 12 bürcün adının olduğunu sğyləmişdir.

**Baba dağı**. Bu ərazidə digər müqəddəs dağ olan Baba dağının zirvəsində olan oyuğun altında xalq arasındakı rəvayətə görə Baba adlı müqəddəsin qəbri var. Dişi ağrıyan, övladsız qadınlar və s. bu piri ziyarət edirlər. Baba dağını 7 dəfə ziyarət etmək əhalinin inamına görə Həcc ziyarətinə bərabərdir (23). Bu pirə ətraf rayonlardan da - Quba, Qusar, Xaçmaz. Dəvəçi, İsmayıllı, Şamaxı, Ağsu rayonlarından da ziyarətə gəlirlər. Baba dağının şimalında Aman evi adlanan sığınacaq da var.

Yerli əhali arasındakı inama görə Baba dağının şimal yamacı qüzeyində tüksək dağlıq meşəsinin bir talası xüsusilə müqəddəs bir yer kimi qorunur. Buna səbəb Baba dağı adının müqəddəs sayılmasıdır. Baba dağ əfsanələrindən birində çox uzaqlardan gələn Baba adlı müqəddəs şəxs torpaqsız- bitkisiz uca dağın başında, qarla örtülü zirvələrdə qeyri-adi taxıl növü yetişdirmişdir. Buna görə də bu tala xüsusilə müqəddəs bir yer kimi qorunur.

Ümumiyyətlə, qədim Asərbaycan sakinləri dağı ulu baba-soyun başlanğıcı kimi müqəddəsləşdirmiş, dağı həm də Göydən, Günəşdən gəlmiş müqəddəs başlanğıc, qoruyucu kimi mifikləşdirmişdilər. Maraqlıdır ki, qədim qıpçaq əfsanəsinə görə mifolji personaj olan "Babay ağa" hər zaman göydə uçaraq insanlara xöşbəxtlik gətirirdi. Onun endiyi ərazi müqəddəs yer sayılırdı (12, 67). göründüyü kimi qədim qıpçaq mifoloji obrazı "Babay

ağa" ilə Baba adlə mifik şəxsiyyət arasında müəyyən oxşarlıq var.

Qeyd etmək lazımdır ki, qədim skif miflərində də Günəş tanrısı Papay adlanırdı və bu türk dillərində baba, ulu baba kimi tərcümə edilir (28). Şahdağ kəndlərində Günəş kultu ilə bağlı qədim inaclarında "baba"kəlməsinə tez-tez rast gəlinməsi (Baba dağı, "baba qolu"daşı, baba daşı və s.) bir daha bu qədim Azərbaycan sakinlərinin qədim köklərindən xəbər verir.

Bundan başqa ziyarətə gələnlər Baba dağındakı müqəddəs sayılan bulağın da suuyundan içirdilər. Bir sıra türk xalqlarında da su ilə dağ ruhunun birləşdirilməsi məlumdur. Məsələn, Altay türklərindən olan şorların su ilə dağ ruhuna həsr olunmuş birgə ayin keçirdikləri məlumdur (25). Göründüyü kimi, bu inancın izlərinə həm Tufan dağı, həm də Baba dağı ziyarətgahlarında rast gəlinir.

Umuiyyətlə, xalq arasındakı inama görə Baba dağı canlı bir varlıqdır və Baba dağından götürülən hər bir daş parçası bu daş bədənin bir hissəsi kimi müqəddəs hesab edilir. "Baba daşı" adlanan belə daşlar bərəkət, məhsuldarlıq simvolu kimi evlərdə saxlanırdı. Hətta quraqlıq zamanı, yağışçağırma ayininin icrasında Xınalıq əhalisi özlərinin ifadə etdikləri kimi "təmiz, pak bir adamın Baba dağından daş götürərək Damdamınkaya atması ilə yağış yağacağına inanırdılar.

Şahdağ etnik qruplarından biri olan qrızlarda toy ərəfəsində bəyin 7 atlı ilə pirə gedib onun başına dolanması adəti mövcuddur. Məlumdur ki, qədim Azərbaycan sakinləri ati günəşin yerdəki simvollarından ən başlıcası kimi müqəddəsləşdirmişlər. Strabon yazırdı ki, atı massaqetlər ən boyük sürətlə hərəkət edən canlı hesab edərək onun göylərə daha tez çatacağına inanır və

Günəş tanrısına at qurban kəsirdilər (14). Şahdağ etnik qrupuna aid olan etnoslar da atı hər zaman müqəddəs hesab etmişlər. Hətta Xınalıq kənd sakinlərinin söylədiklərinə görə bu ərazidə bəzən atlar ehtiram əlaməti olaraq dəfn edilmişdilər. Ümumiyyətlə, qədimdə türkdilli xalqlarda şöhrətli atlar üçün məzar və türbə düzəldildiyi məlumdur (26, 19). Göründüyü kimi, bütün azərbaycanlılar kimi Şahdağ etnik qrupları da tarixi zaman içərisində qədim şumer-türk inanclar sistemini İslam düşüncə tərzi ilə birləşdirərək yeni bir sintez yaratmış və bununla da qədim dini dünyagörüşlərini bu günədək özünəməxsus şəkildə yaşatmışlar.

Beləliklə, Şahdağ xalqlarında pir inancları və onların mənşəyinin araşdırılması Azərbaycan əhalisinin keçmişi ilə bu günü arasında körpü yaradaraq Azərbaycan mənəvi mədəniyyətinin, tarixi varisliyinin dərin köklərinin mövcudluğunu bir daha təsdiq etmiş oldu. Ümumazərbaycan, ümumtürk mədəniyyət tarixi müqayisəli şəkildə araşdırıldıqca və qədimlərə doğru getdikcə bu tarixin vahid bir kökə calandığının şahidi oluruq.

***


1. Q. Qeybullayev. Elmi publisistik məqalələr. Bakı, 2002.
2. F. Bayat. Od ruhu. Folklor və etnoqrafiya. 2004, N3
3. S. Elçin. Tütklərdə aşıq oyunu və bu oyunla ilgili adət-ənənələr. Tük kültürü. 1986
4. III Millətlərarası Folklor konqresi Bildiriləri. Ankara. 1987.
5. M. Seyidov. Azərbaycanda mifik təsəvvürün qaynaqları. Bakı. 1983.
6. Y. kalafat. Doğu Anadoluda əski türk inancları. Ankara. 2005.





7. Volkova. N. Q. Xınalıq. Kavkazskiy etnoqrafiçeskiy sbornik. VII. M. , 1980.
8. Arxeoloqiçeskie i etnoqrafiçeskie izıskaniya v Azerbaycane. 1977q. Baku, 1980.
9. Uçonıe zapiski AQU. Seriya istorii i filosofii. 1966. N6.
10. Q. Cavadov. Azərbaycanın azsaylı xalqları və milli azlıqları. Bakı, 2000.
11. Q. Qeybullayev. Azərbaycanlıların etnik tarixinə dair. Bakı, 1994.
12. Murad Adjı. Evropa, tyurki, Velikaya step. M, 1998.
13. N. Rzayev. Əcdadlarımızın izi ilə. Bakı, 1992.
14. M. Paşayeva. Azərbaycanlıların ailə məişətində kosmoqonik inamların yeri. Folklor və etnoqrafiya jurnalı. 2006, N1
15. N. Müseyibli. Gəmiqaya. Bakı. 2004.
16. T. Axundov. Severo-Zapadnıy Azerbaydjan v epoxi eneolita i bronzı. Baku. 2001.
17. Strabon. Qeoqrafiya v 17 kniqax, 3, IV. M, 1979.
18. Azərbaycan SSR EA 1945-ci il ekspedisiyalarının materialları. Bakı, 1947
19. Ə. Rəcəbov. Y. Məmmədov. Orxon-Yenisey abidələri. Bakı. 1993.
20. Q. Paşayev. İraq- Türkmən folkloru. Bakı. 1992.
21. E. Əlibəyzadə. Azərbaycan xalqının mənəvi mədəniyyət tarixi. Bakı 1998.
22. SMOMPK. IX. Tiflis, 1890. İokimov. İz etnoqrafiçeskoqo dnevnika.
23. B. Budaqov. Türk uluslarının yer yaddaşı. Bakı. 1994.
24. A. Şükürov. Mifologiya. VI.
25. L. P. Potapov. Kult qor na Altaye. Sovetskoe etnoqrafiya. 1946. N2.
26. K. Vəliyev. Elin yaddaşı, dilin yaddaşı.
27. Sovetskaya tyurkologiya. 1973. N3. M. Seyidov. K voprosu o traktovke ponyatii Yer, Sub v drevnetyurkskix pamyatnikax.

28. Qeybullayev Q. Azərbaycan türklərinin təşəkkülünə dair. Bakı, 1994.

İnformatorlar:

- Kənd sakiniləri Xalid. dayi, 1939.
- Məlikli Rüstəm, 1959.
- Hüseynov Şaiq, 1941.
- Şərifov Ziyəddin 1940

# NƏTİCƏ

Beləliklə, bu gün Azərbaycan xalqının tərkib hissəsi olan Şahdağ xalqları ümumi məişətlərini formalaşdırmaqla bərabər özlərinin spesifikliyini, lokal-səciyyəvi cəhətlərini də müəyyən dərəcədə qoruyub saxlamışlar. Şahdağ xalqlarının ailə məişəti ilə bağlı qədim dini-mifik dünyagörüşlərinin araşdırılması azərbaycanlıların keçmişi ilə bu günü arasında körpü yaradaraq Azərbaycan mənəvi mədəniyyətinin tarixi varisliyinin dərin köklərinin, eyni zamanda qədim şumer-türk-azərbaycan mədəniyyətləri arasındakı qırılmaz bağların mövcudluğunu bir daha təsdiq etmiş oldu. Beləliklə, bütövlükdə ümumazərbaycan mənəvi mədəniyyət tarixi araşdırılıb qədimlərə doğru getdikcə bu tarixin vahid bir kökə calandığını görürük. .

Bugün Azərbaycançılıq ideologiyasına əsaslanaraq müstəqillik yolunda inamlı addımlarla irəliləyən Azərbaycanda yaşayan azərbaycanlıların, o cümlədən Azərbaycanın və dünyanın nadir etnoslarından olan xınaliqlar, qrızlar, buduqlar, və digər etnik qrupların maddi və mənəvi mədəniyyət tarixinin qarşılıqlı- müqayisili şəkildə araşdırılması və bu tarixin qorunaraq gələcək nəsillərə ötürülməsi bütövlükdə Azərbaycan mənəvi mədəniyyət tarixinin milli çalarlarının və qədim tarixi bağlarının üzə çıxmasına imkan yaradır.

## ДРЕВНИЙ КРАЙ АЗЕРБАЙДЖАНА – ХЫНАЛЫГ

В настоящее время в Азербайджане проживают представители таких различных малочисленных народов и этнических груп, как удины, ингилойцы, аварцы, так называемые, "шахдагские народности" – хыналыгцы, крызы, будугцы и т. д. Уместно отметить, что на этнической карте мира эти этнические группы зафиксированы только в Азербайджане и численность каждой из них не превышает нескольких тысяч человек, а размешены они в одном или нескольких селах.

От названия горы Шахдаг Кубинского р-на Азербайджанской Республики вблизи которой находится населенные пункты хыналыгцев, будугцев, крызов, в историко-этнографической литературе они именуется как "шахдагские народности".

Хыналыг, Хапут, Крыз, Будуг – своего рода этнографический музей созданной историей и природой в горах Кавказа и до наших дней сохранивший в своей культуре многие реликтовые формы.

История и этнография "шахдагских народностей" представляет несомненный научный интерес и в целом играет важную роль в выявлении общенациональных особенностей и глубоких корней духовной культуры Азербайджана.

Несмотря на географически изолированное расположение населенных пунктов "шахдагских народностей", еще XVIII веке история и этнография хыналыгцев, будугцев, крызов вызывало у исследователей большой интерес и было опубликовано ряд историко-этнографических сведеней о них.



О происхождении хыналыгцев, будугцев, крызов, хапутлинцев имеются разные точки зрения. Но в результате последних исследований доказано, что "шахдагские народности потомки таких древних племен Кавказкой Албании, как гаты и эры. На самом деле хыналыг, будуг, хапут не самоназвания этих этносов, а наименования таких исторических округов северно-западной части Кавказкой Албании, как Хени, Эры, Бед (нынешная территория Шеки-Закаталы Азербайджанской Республики). Эти племена, переходя через горных хребет переселились с северо-запада на северо-восточную часть Азербайджана. Надо отметить, что среди хыналыгцев и хапутлинцев существует легенда о том, что их предки переселились из городах Хено и Ерна */Xeni, Həprə/*.

Этногенетическую связь "шахдагских народностей" с племенами Кавказской Албании подтверждают и сведения в источниках XIX века о проходе через снеговые хребты связывающие северо-западную Албанию с Шахдагскими селениями. Интересно, что расположенная между Хыналыгом и северо-западной частью Азербайджана гора Туфан среди населения считается священной.

Кроме того общие черты обычаев и обрядов, верования шахдагцев и населения Шеки-Закаталы ещё раз доказывает вышесказанных. В статье ведутся паралелли в этом направлении.

Как и во всех регионах Азербайджана, в шахдагских селах существует множество священных мест */pir, ziyarətgah, ocaq u.m.д./* В святилищах "Pir Comərt", "Şıxisrafilbaba pir ", "Qırxabdal baba pir ", "Xıdır Nəbi", "Babadilim piri", "Küləxana", "Baba dağı

piri" и т. д. прослеживаются пережитки древних верований, таких как культ солнца, луны, воды, горы, культ предков.

Среди древних верований "шахдагских народностей" особое место занимает культ горы. Проживающие среди высоких гор, Шахдаг, Туфандаг, Гибледаг, Бабадаг, "шахдагские народности", как и все азербайджанцы поклоняются горам и создавали разные легенды о них. Распространившийся во всём Азербайджане миф о Нухе /*Gemiqaya, İlanlıdağ/* и т. д. существует и Шахдагских селениях. Среди народов "шахдагской группы "сохранилась легенда о горе Туфан. Она повторяет легенду о горе Агры /*Ağrı dağı/*, которая была известна среди тюркских народов. В настоящее время небольшое одноимённое озеро около горы Туфан считается священным.

Распространившееся во всей территории Азербайджана поверье о духе "ал" (этот дух опасен для роженицы и ребенка) среди "шахдагских народностей" чаще всего известно как "Истар" или "Истар Мерам".

Итак, материалы собранные в шахдагских селах, свидетельствуют о том, что здесь сохранились самые древние представления, пережитки культов шумерских и скифских божеств, как Папай, Иштар и т. д. Можно прийти к выводу, что религиозно-мифологические мировоззрения "шахдагких народностей" тесно связаны с шумерской идеологией, и их исследования в целом раскрывают древние корни Азербайджанской духовной культуры.



## ANCIENT LAND OF AZERBAIJAN– HINALIQ

Now representatives of such various small amount of people and ethnic groups as udin, ingiloys, avars, so-called, "shahdagian nationalities" - hinaliqs, krizes, buduqs, etc. Pertinently to note, that on an ethnic map of the world those ethnic groups are recorded only in Azerbaijan people live and number of each of them person does not exceed several thousand, and they live in one or several villages.

From the name of mountain Shahdag of Quban region of Azerbaijan Republic near to which are settlements hinaliqs, buduqs, krizes, in the historian-ethnographic literature they is called as "Shahdag nationalities".

Hinaliq, Haput, Kriz, Buduq - some kind of an ethnographic museum which was created created to the history and to the nature in mountains of Caucasus and up to now kept in the culture many relic forms.

The history and ethnography of "Shahdag nationalities" represents doubtless scientific interest and as a whole plays the important role in revealing national features and deep roots of spiritual culture of Azerbaijan.

Despite of geographically isolated arrangement of settlements "Shahdagian nationalities", still XVIII a century go to history and ethnography Hinaliqs, Buduqs, Krizes caused in researchers the big interest and it has been published a number of historian-ethnographic data on them.

About the origin of xinaliqs, budugs, krizes, haputents there are different points of view. As a result of

last those researches it is proved, that "Shahdagian nationalities descendants of such ancient tribes Caucasus of Albania, as Gats and an Era. Actually Hinalig, Budug, Haput not self-names of these ethnoses, and names of such historical districts of northern-western part Caucasus of Albania, as Heni, the Era, Troubles (today's territory Sheki-Zakatali of the Azerbaijan Republic). These tribes, passing through mountain a ridge have moved from northwest to a northeast part of Azerbaijan. It is necessary to note, that among xinaligs and haputilian there is a legend that their ancestors have moved from the cities of Heno and Erna */Xeni, Shyabra/.*

Ethnogenetic connection "Shahdagian nationalities with tribes of the Caucasian Albania data in sources XIX of a century about pass through snow ridges connecting confirm confirm also northwest Albania with settlements Shahdagskimi. It is interesting, that located between Hinaligian and a northwest part of Azerbaijan the mountain Tufan among the population is considered sacred.

Except for that the common features of customs and ceremonies, shahdagian and population Sheki-Zakatali still time proves beliefs noted. In article comparisons in this direction are conducted.

As well as in all regions of Azerbaijan, in Shahdagian villages there is a set of sacred places / *pir, ziyaryatgah, ocaq e.t.c.* / In sanctuaries "Pir Jomert", "shisrafilbaba pir", "Qırxabdal baba pir", "Xıdır Nyabi", "Babadilim piri", "Kulaxana", "Baba daq piri", etc. vestiges of ancient beliefs, such as a cult of the sun, the moon, water, mountain, a cult of ancestors are traced.



Among ancient beliefs "Shahdagian nationalities" the special place occupies a cult of mountain. Living among high mountains, Shahdag, Tufandrag, Gibledag, Babadag, "Shahdagian nationalities", as well as all Azerbaijanians worship to mountains and created different legends about them. The myth which has extended in all Azerbaijan about Nuh*/Gemiqaya, İlanlıda ğ/,* etc. exists also settlements of Shahdag. Among people "Shahdagian groups "the legend about mountain Tufan was kept. It repeats a legend about mountain of Agra*/Ağr da /* which was known among Turkic people. Now the small one-nominal lake about mountain Tufan is considered sacred.

Extended in all territory of Azerbaijan worships about spirit "is scarlet" (this spirit is dangerous to the lying-in woman and the child) among "Shahdagian nationalities" it is known as «Istar» more often.

So, materials collected in Shahdagian villages, testify that the most ancient representations here were kept, vestiges of cults Shumerian and Scythian deities as Papayas, Ishtar, etc. It is possible to come to conclusion, that religious-mythological outlooks "Shahdagian nationalities" are closely connected with Shumerian ideology, and their researches as a whole open ancient roots of the Azerbaijan spiritual culture. There are people, process of disappearance of which ethnic habits occurs almost to our eyes. Quantity of such people is insignificant. Quite often it is inhabitants only one or several settlements. In Azerbaijan live "Shahdag ethnic groups "to which refer to "hınalıq, buduq, kriz". The name of "Shahdag ethnic groups "from the name of mountain Shahdag, near to settlements of hinaliqs, buduqs, kriz. These settlements some kind of the ethnographic reserve

created by history and the nature in mounts of Caucasus and up to now saved in crop many relict form.

The history and ethnography of Shahdag people represents doubtless scientific interest from the point of view of the ethno genetic roots, traditional roots of these people. In the modern historical literature it is established an ethno consanguinity Shahdag people with ancient nations of the Caucasian Albania.

Factors contributed to conservation of ethnic specificity geographical insulation and family traditions. Family-marriage traditions in Shahdag in the past were characterized by strict endogamy. In family ceremonials Shahdag people there are lots of extends between vestiges of ancient religions. In paper it is presented various conviction ("baba qolu", İstar and. etc.), feastings, sanctuaries (Pir Chumart, Kulaxana, "Baba dagi" and etc.).

Between parental customs of hegnalians appear very belonging rituals. For example, boys which had left this world, or birth of several girls leave on head a curl which would not be shaved until child is 7 year old. It was believed that God would see from above the curl and would stop for getting lost or to die. It is interesting that between kuliks was also existed belief to leave a curl in shaved head.

In mythical writings hipanings exists "Istar" {possibly, Shemarian Ishtar} or Istar Ierat {possibly, Mariam}. It also could be counted testifies that in Az that never be known with names of Goddess fertility Istar.

In the time when on villages were collected materials of amulets. Especially, cornelian bracelet{reddish}- Baba gulu was secured of all troubles, including stopping someone putting eye on person. Stone of cornelian was



believed to be strong. That's why it was tried that in every house existed its stone "Baba Gulu". Keeping gives from sky on the time of thunder, or when lighting strikes.

In hinaligians also could be seen ritual- "Al gabani" which yellow smooth bone, which watches after woman who gives birth and new-born from spirit "Al". Spirit Al steals liver and heart of new-born and woman who gave birth.

In the time of ethnographical expedition were collected materials and leanings. In one of old ancient ritual"Chabbar baba" in the field were lying plane stone on size 1.3x0.8 m, in which there were bringing sacrifices. Near that altars dig on land two trees posts in above as looks conventionalized horn. Probably those horns were symbols of new Moon. As it is widely known, ancient habitants of Azerbaijan respected of Moon cult in which one of them is new Moon on Earth was horns of bull.

In south part Hanamich located ritual "Hudur Nabi" which was believed that it cures from toothache and other sicknesses and helps followers. Guests of ritual itself to graveyard wheat which was growing. Interesting that by ancient Turkish beliefs people were gathering on road certainly poured wheat. Only after its growth there were going on the road. On one of the Turkish origin Kerkuk's peoples{Iraq} this ancient ritual also had existed.

In the book according to the Hinaliq village was given information in English about pictures.

Definition of the pictures.

**Picture 1**. The beeswax which became callous. (Situated in the Hinaliq Museum)

**Picture 2**. People of the Hinaliq

created by history and the nature in mounts of Caucasus and up to now saved in crop many relict form.

The history and ethnography of Shahdag people represents doubtless scientific interest from the point of view of the ethno genetic roots, traditional roots of these people. In the modern historical literature it is established an ethno consanguinity Shahdag people with ancient nations of the Caucasian Albania.

Factors contributed to conservation of ethnic specificity geographical insulation and family traditions. Family-marriage traditions in Shahdag in the past were characterized by strict endogamy. In family ceremonials Shahdag people there are lots of extends between vestiges of ancient religions. In paper it is presented various conviction ("baba qolu", İstar and. etc.), feastings, sanctuaries (Pir Chumart, Kulaxana, "Baba dagi" and etc.).

Between parental customs of hegnalians appear very belonging rituals. For example, boys which had left this world, or birth of several girls leave on head a curl which would not be shaved until child is 7 year old. It was believed that God would see from above the curl and would stop for getting lost or to die. It is interesting that between kuliks was also existed belief to leave a curl in shaved head.

In mythical writings hipanings exists "Istar" {possibly, Shemarian Ishtar} or Istar Ierat {possibly, Mariam}. It also could be counted testifies that in Az that never be known with names of Goddess fertility Istar.

In the time when on villages were collected materials of amulets. Especially, cornelian bracelet{reddish}-Baba gulu was secured of all troubles, including stopping someone putting eye on person. Stone of cornelian was

believed to be strong. That's why it was tried that in every house existed its stone "Baba Gulu". Keeping gives from sky on the time of thunder, or when lighting strikes.

In hinaligians also could be seen ritual- "Al gabani" which yellow smooth bone, which watches after woman who gives birth and new-born from spirit "Al". Spirit Al steals liver and heart of new-born and woman who gave birth.

In the time of ethnographical expedition were collected materials and leanings. In one of old ancient ritual"Chabbar baba" in the field were lying plane stone on size 1.3x0.8 m, in which there were bringing sacrifices. Near that altars dig on land two trees posts in above as looks conventionalized horn. Probably those horns were symbols of new Moon. As it is widely known, ancient habitants of Azerbaijan respected of Moon cult in which one of them is new Moon on Earth was horns of bull.

In south part Hanamich located ritual "Hudur Nabi" which was believed that it cures from toothache and other sicknesses and helps followers. Guests of ritual itself to graveyard wheat which was growing. Interesting that by ancient Turkish beliefs people were gathering on road certainly poured wheat. Only after its growth there were going on the road. On one of the Turkish origin Kerkuk's peoples{Iraq} this ancient ritual also had existed.

In the book according to the Hinaliq village was given information in English about pictures.

Definition of the pictures.

**Picture 1**. The beeswax which became callous. (Situated in the Hinaliq Museum)

**Picture 2**. People of the Hinaliq

**Picture 3**. Stone called "Babaqulu"(this stone is protect from all disasters)

**Picture 4**. Boy with plait on the crown which wasn't cut since he was born (this the ancient birth tradition)

**Picture 5**. The place of worship related with cult water called "Kirk Abdal"

**Picture 6** The most Ancient Sanctuary of the village called "Piri Jomert" which took new name after Islam religion was accepted by population"Abu Muslum"

**Picture 7**. Sanctuary called " Juma Mecidi"

**Picture 8**. Wooden column with decoration of the sun cult. (Situated in the sanctuary "Juma Mecidi")

**Picture 9**. Stone with symbols which is similar to "Orxon-Yenisey" alphabet (on the wall of the "Juma Mecidi")

**Picture 10**. Ancient grave stone with unique pictures.

**Picture 11**. The wooden holy column like a bull horn which is one of the symbols of the ancient Moon cult. (Situated in the sanctuary called "Jabbar baba")

**Picture 12**. The bull horn which is on the wall of the Hinaliq houses.( This is the symbol of the fecundity)

**Picture 13**. The stone on the wall of the Hinaliq house like a new moon.

**Picture 14**. The grave stone with silhouette of the human form like a "Orxon-Yenisey" monument.


1


2


3


4


5


6


7


8


9


9


9


9


10


11


12


13


14

# MÜNDƏRİCAT


Ön söz....................................................................................3
Müəllifdən ...............................................................................5

I Fəsil
Etnik tarix və etnogenetik əlaqələr....................................8

II Fəsil
Qohumluq münasibətləri və ailə mərasimləri ................14

III Fəsil
Pir inancları ..........................................................................24

Nəticə ....................................................................................45

Drevniy kray Azerbaydjana –Xinaluq (rezyume) ...........46

Ancient land of Azerbaijan--Hinaliq (resume) ................49

İllüstrasiyalar .........................................................................55

Fotoları **Hüseyn Paşayev** çəkmişdir.

**Paşayeva Məhəbbət**
**Azərbaycanın qədim diyarı Xınalıq**
Azərnəşr, Bakı, 2006

Yığılmağa verilmiş 18.08.06
Çapa imzalanmış 22.08. 06
Formatı 84x108 1/32
Şərti çap vərəqi 3,75
Uçot nəşr vərəqi 3,0
Sayı 500 nüsxə
Qiyməti müqavilə ilə